## 13 milyon 790 min avro mükafat qazanıb

"Qarabağ" ilk 50 komanda arasında yer alıb



**Bu mövsüm avrokuboklarda ən çox mükafat qazanan klublar bəlli olub.**

Apasport.az xəbər verir ki, "Qarabağ" bu göstəricidə ilk 50 komanda arasında yer alıb. Çempionlar Liqasında mübarizəyə başlayan Ağdam klubu Avropa Liqasında 1/8 finala vəsiqə qazanaraq 10 milyon 482 min avro gəlir əldə edib. Beləliklə, təmsilçimiz 47-ci pillədə qərarlaşıb. "Qarabağ"ın 1/8 finaldakı rəqibi "Bayer" 13 milyon 790 min avro mükafat qazanaraq 34-cü olub. Qeyd edək ki, cari mövsüm avrokuboklarda ən çox gəlir əldə edən komanda "Real Madrid"dir. İspaniya klubu 79 milyon 892 min 421 avro qazanıb.



## Xankəndidə uşaq bağçasının zirzəmisindən silah-sursat tapılıb

**Polis əməkdaşları Xankəndi şəhərində əməliyyat keçiriblər.**

Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

(səh.2)

❐ № 38 (6039) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 fevral 2024-cü il (çərşənbə)



# Novruz bayramında Əfv fərmanı gözlənilir

Hüquq müdafiəçisi qeyd edib ki, komissiya müraciətlərə baxır

**"Novruz bayramında Əfv fərmanının verilməsini gözləyirik".** Bunu "Şərq"ə açıqlamasında hüquq müdafiəçisi, Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı bildirib. Hüquq müdafiəçisi qeyd edib ki, Əfv komissiyası müraciətlərə baxır: "Komissiya həmişə işləyir, ərazilərə, müraciətlərə baxılır. Müraciətlər çoxdur. Əlbəttə, yaxşı olardı ki, Novruz bayramı ərəfəsində Əfv fərmanı imzalansın. Bilirsiz ki, Əfv fərmanının imzalanması Prezidentin müstəsna səlahiyyətidir. Biz ümid edirik ki, bayram ərəfəsində əfv olacaq. Neçə-neçə ailənin gözü yoldadır. Bu il Əfv fərmanının imzalanması həm də tarixi əhəmiyyət daşıyacaq. Çünki Azərbaycanın ərazi bütövlüyü təmin edildikdən sonra imzalanan ilk Əfv fərmanı ola bilər. İstərdik bu Əfv fərmanı həm də ən böyük əfv fərmanı olsun".

**Məlahət**



## Vizaların verilməsi prosesi sadələşdiriləcək

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Həcc və Ümrə nazirini qəbul edib

**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiəni qəbul edib.**

Taufiq bin Fauzən Əl Rabiə İlham Əliyevi prezident seçkilərində qələbəsi və Azərbaycan torpaqlarının işğaldan azad olunması münasibətilə təbrik edib.

Dövlət başçısı təbriklərə görə minnətdarlığını bildirib.

Qonaq əvvəl çalışdığı vəzifələrdə də ölkəmizə səfər etdiyini xatırladaraq son dövrlərdə Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında bütün sahələrdə olduğu kimi turizm sahəsində də əməkdaşlığın genişlənməsini və qarşılıqlı turist səfərlərinin artmasını məmnunluqla qeyd edib, uçuş reyslərində olan dinamikanı müsbət qiymətləndirib.

(səh.2)

## AŞPA Fransanın aqibətini yaşayır

Səməd Seyidov: "Avropa Şurası da Fransanın oyununu oynadığına görə özünü regiondan xaric etdi"



Macarıstan Milli Assambleyasının Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri Zolt Nemet AŞPA-nın qış sessiyasında parlamentin Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinə etirazla bağlı qəbul edilmiş qətnamə ilə əlaqədar AŞPA sədri Teodoros Russopulosa məktub göndərib.

(səh.3)

# Berlində sülh danışıqları başlayır

Tərəflər ümid edir ki, sülh sazişi üzrə irəliləyişlər olacaq



**Dünən xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasına işgüzar səfərə yola düşüb.**

Bu barədə Xarici işlər Nazirliyindən bildirilib.

Qeyd edilib ki, səfər çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş" layihəsi üzrə danışıqların növbəti raundunun, habelə Almaniyanın rəsmi şəxsləri ilə görüşlərin keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, dünən Ermənistan xarici işlər naziri Ararat Mirzoyan da, Almaniyaya səfərə yola düşüb.

"Ümid edirəm ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan fevralın 28-29-da Berlində keçiriləcək görüşdə sülh sazişi üzrə irəliləyişə nail olacaqlar".

Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Afinada yunan həmkarı Kiriakos Mitsotakislə görüşü zamanı deyib.

"Bilirsiniz ki, yaxın vaxtlarda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü gözlənilir. Ümid edirəm ki, bu görüşün nəticəsində irəliləyiş əldə olunacaq", - o əlavə edib.

# Qan çanağı...

Bütün təxribatların başında Paris dayanıb





**Ötən həftə Paris və İrəvanda Fransa-Ermənistan əlaqələrinin genişlənməsi müzakirə olundu.**

Ermənistan Baş naziri Nikol Paşinyan Parisdə Fransa Prezidenti Emmanuel Makronla görüşdü. Ardınca Fransanın müdafiə naziri Sebastian Lekornu İrəvana səfər etdi. Ermənistanın müdafiə naziri Suren Papikyan Lekornu ilə hərbi əməkdaşlığa dair sənədlər paketi imzaladılar.

Digər müqavilə müdafiə nazirinin müavini Karen Brutyanla adı açıqlanmayan fransız şirkətinin nümayəndəsi arasında imzalandı. Sazişlərin detalları açıqlanmadı.

(səh.3)




## Ağdamlılar haqlıdır

Yeni tikiləcək stadiona Allahverdi Bağırovun adının verilməsi daha doğrudur

**Millət vəkili, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa ağdamlıları ayağa qaldırıb.**

Səbəb, millət vəkilinin Ağdamda yeni tikiləcək stadiona hazırda "Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanovun adının verilməsi təklifidir. Məhz bu təklif çılğın ağdamlıları hövsələdən çıxarıb. Hərçənd Fazil bəy təklifin məğzini ətraflı izah edib. Lakin Ağdam ictimaiyyəti sakitləşənə oxşamır.

(səh.4)

## Əməliyyat keçirildi

Paytaxt və bölgələrdə 19 silahlı şəxs saxlanılıb



**Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi paytaxt və bölgələrdə silahlı şəxslərə qarşı əməliyyatlar keçirib.**

"Şərq" DİN-ə istinadən xəbər verir ki, idarə əməkdaşları tərəfindən paytaxt və bölgələrdə üzərində qanunsuz olaraq odlu silah-sursat saxlayan və satışını təşkil edən şəxslərə qarşı növbəti əməliyyatlar keçirilib. Tədbirlər zamanı ümumilikdə 19 silahlı şəxs saxlanılıb. Onlardan 18 ədəd odlu silah, o cümlədən 6 "Makarov" və Avropa istehsalı olan tapança, 7 ədəd "Kalaşnikov" avtomatı, 1 ədəd "PM-98" pulemyotu, 4 ədəd lüləsi və qundağı kəsilmiş ov tüfəngi, həmçinin 243 ədəd müxtəlif çaplı patron aşkar olunaraq götürülüb. Silahlı şəxslərdən birindən əlavə olaraq 2 kiloqrama yaxın narkotik vasitə marixuana da aşkar edilib.

Faktlarla bağlı cinayət iş?ləri bas?lanılıb. Saxlanılan 19 nəfərin hər biri barəsində həbs qətimkan tədbiri seçilib, araşdırmalar davam etdirilir.

## Ana südü ilə qidalanan körpələrin sayı azalıb



**Bu gün ana südü ilə qidalanan körpələrin sayında ciddi azalma var və bu, çox təhlükəli haldır.**

"Report" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib.

Onun sözlərinə görə, körpə üçün ana südündən qiymətli heç nə ola bilməz.



## "Makron danışıqlara müdaxilə edə bilməyəcək"

Sərdar Cəlaloğlu: "Əgər Paris buna cəhd edərsə, Azərbaycan tərəfi dərhal müzakirələrdən çəkiləcək"

(səh.4)



## İcra hakimiyyətləri ləğv olunmalıdır

Onların bütün səlahiyyətləri bələdiyyələrə verilməlidir

(səh.4)



# Vizaların verilməsi prosesi sadələşdiriləcək

## Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Həcc və Ümrə nazirini qəbul edib

**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiəni qəbul edib.**

Taufiq bin Fauzən Əl Rabiə İlham Əliyevi prezident seçkilərində qələbəsi və Azərbaycan torpaqlarının işğaldan azad olunması münasibətilə təbrik edib.

Dövlət başçısı təbriklərə görə minnətdarlığını bildirib.

Qonaq əvvəl çalışdığı vəzifələrdə də ölkəmizə səfər etdiyini xatırladaraq son dövrlərdə Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında bütün sahələrdə olduğu kimi turizm sahəsində də əməkdaşlığın genişlənməsini və qarşılıqlı turist səfərlərinin artmasını məmnunluqla qeyd edib, uçuş reyslərində olan dinamikanı müsbət qiymətləndirib.

Azərbaycan tərəfindən Səudiyyə Ərəbistanı Krallığının vətəndaşlarına münasibətdə vizaların verilməsi prosesinin asanlaşdırılmasının turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyini deyən Taufiq bin Fauzən Əl Rabiə ölkəsinin də Azərbaycan vətəndaşlarına vizaların verilməsi prosesinin sadələşdirilməsi istiqamətində addımlar atdığını diqqətə çatdırıb.

Qonaq "Expo-2030"un və 2034-cü ildə futbol üzrə dünya çempionatının Səudiyyə Ərəbistanında keçirilməsi ilə bağlı Azərbaycanın verdiyi dəstəyə görə bir daha təşəkkürünü bildirib.

Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərindən məmnunluğunu ifadə edib.

Dövlət başçısı Səudiyyə Ərəbistanı Krallığının İslam həmrəyliyi prinsipindən çıxış edərək Azərbaycan torpaqlarının işğalı dövründə Ermənistan ilə diplomatik əlaqələr qurmamasını xatırladaraq, İslam dünyasında Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın bu cür ədalətli mövqedən çıxış etməsinin Azərbaycan xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Prezident İlham Əliyev hazırda Qarabağda aparılan bərpa-quruculuq işlərini qeyd edib və Böyük qayıdış layihəsinin həyata keçirildiyini bildirib.

Azərbaycanda Səudiyyə Ərəbistandan olan turistlərin sayının artmasındakı müsbət dinamikaya toxunan dövlət başçısı turistlərin sayı ilə bağlı COVID-19 pandemiyasından əvvəlki rəqəmlərə çatmağın vacibliyini vurğulayıb və bu istiqamətdə böyük potensialın olduğunu deyib.

Görüşdə Azərbaycanda və Səudiyyə Ərəbistanında ölkələrimizin iqtisadi, investisiya, turizm və digər potensialını əks etdirən sərgilərin təşkilinin vacibliyi bildirilib, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd edilib.

Həm Azərbaycanda, həm də Səudiyyə Ərəbistanında urban inkişaf üzrə çox böyük layihələrin həyata keçirildiyi bildirilərək bu sahədə də əməkdaşlığın vacibliyi vurğulanıb.

*Sonda qonaq dövlət başçısına xatirə hədiyyəsi təqdim edib.*

# Qərbin silahları Ermənistanı qoruya bilməz

## Nə Ermənistan İsraildir, nə də erməni toplumu yəhudi xalqıdır, heç ola da bilməz

**Ermənistanın Qərb ölkələri vasitəsilə silahlanmasına Rusiyadan reaksiyalar gəlməkdədir. Rus rəsmilər Qərbin silahlarının Ermənistanı qorumayacağını iddia edirlər. Rusiyalı hərbi ekspert, Strategiyaların və Texnologiyaların Təhlili Mərkəzinin direktoru Ruslan Puxov deyib ki, Qərbdən birdəfəlik texnikanın alınması Ermənistanın müdafiə qabiliyyətini artırmayacaq və bu problemi həll etməyəcək.**



İrəvan üçün çıxış yolu silahlanmaq yox, Azərbaycanla sülh bağlamaqdır...

Onun sözlərinə görə, ümumi müdafiə konsepsiyasına ehtiyac var: "Əgər Ermənistan İsrail üslubunda total müdafiəsi olunarsa, o zaman silahlı münaqişədə Ermənistanın düşmənə böyük ziyan vurması mümkündür". O bildirib ki, Ukraynadakı xüsusi hərbi əməliyyat səbəbindən Rusiyanın müdafiə sənayesi Ermənistanın ehtiyac duyduğu hərbi sistemləri İrəvana verə bilmir. Lakin Ermənistanın silah və sursatla təmin edilməsi məsələsi müxtəlif yollarla həll oluna bilər: "Məlum şəraitə görə Ermənistana tədarükdən danışmaq mümkün deyil. Amma Rusiyanın indi də Ermənistana yardımı davam etdirməsi təsdiqlənmiş faktdır. Üstəlik, Rusiya Ermənistana dost ölkələrdən silah almaq üçün müəyyən məbləğ ayıra bilər. Amma bütün bunlar açıq bəyanatlar deyil, məxfi danışıqlar məsələsidir". Ekspertin sözlərinə görə, ABŞ bir neçə dəfə Ermənistanın İrandan silah almasına dair sövdələşmələrə mane olub: "Ermənistan Silahlı Qüvvələrinin NATO üslubunda qurulmasından danışmaqla, Fransa və ya digər Qərb ölkələrindən birdəfəlik sursat almaqla İrəvanın müdafiə qabiliyyətinin gücləndirilməsi məsələsini həll etmək mümkün deyil. Çünki lazım gələrsə, Azərbaycan və Türkiyə Qərbin bu silahlarının yerləşdiyi yerlərə qabaqlayıcı zərbə endirə bilər".

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, "Qərbin silahları Ermənistanı qoruya bilməz" fikri ilə razılaşmaq olar. Analitikin sözlərinə görə, "İsrail üslubunda total müdafiə" isə nəinki nəzəri, heç praktik cəhətdən də mümkün deyil: "İlk** növbədə ona görə ki, nə Ermənistan İsraildir, nə də erməni toplumu yəhudi xalqıdır, heç ola da bilməz. Məsələ ondadır ki, yəhudi xalqı boş çölləri abadlaşdırıb, susuz, bərəkətsiz çölləri həyat üçün yararlı hala gətirməklə yanaşı, müasir silahlar da ixtira etdi, istehsala başladı. Həm də öz sərhədlərini möhkəmləndirdi. Yəhudilər dünya maliyyə dövriyyəsinə nəzarət edirlər. Müqayisə üçün də olsa, erməni toplumu ilə yəhudi xalqını qarşılaşdırmaq doğru analiz deyil. Region baxımından da qeyd edilən nüans yanlışdır. İsrail vaxtı ilə ona böyük ölçüdə düşmən olan ölkələrin ətrafında yaradılıb və həmişə özünü müdafiə etməyə məcbur buraxılıb. Ermənistan isə əksinə, ona düşmənçilik etməyən dövlətlərin əhatəsində süni olaraq yaradılıb. Buna baxmayaraq, kənardan gətirilmiş ermənilərə düşmən münasibət göstərilməyib. Ancaq Ermənistan Azərbaycana qarşı bütün pisliklərə yol verib. Ərazilərimizi işğal edib, soyqırımları törədib və s. Ona görə Ermənistanın indiki durumundan şikayətlənməyə haqqı yoxdur".

**Ekspert vurğulayıb ki, İrəvan üçün çıxış yolu silahlanmaq yox, Azərbaycanla sülh bağlamaqdır:** "Əgər Ermənistan bunu başa düşmürsə və tarixi səhvləri təkrarlamağa meyl edirsə, Azərbaycanın onu yenidən ağıllandırmaqdan başqa yolu qalmayacaq. O zaman Ermənistana "İsrail üslubu ilə müdafiə" yox, heç yadplanetli müdafiə üslubu da kömək etməyəcək".

**İsmayıl Qocayev**

# Fransanın müstəmləkəçilik siyasəti pislənib

## Yeni Kaledoniyada növbəti etiraz aksiyası keçirilib

**Fevralın 27-də Yeni Kaledoniyanın paytaxtı Numeada məhkəmə qarşısında Fransanın müstəmləkəçilik siyasətinə qarşı növbəti etiraz aksiyası keçirilib.**




APA xəbər verir ki, etirazçılar Fransa hakimiyyəti tərəfindən saxlanılmış fəalların azadlığa buraxılmasını tələb ediblər.

Xatırladaq ki, 21 fevral tarixində Fransanın daxili işlər və dənizaşırı naziri Gerald Darmaninin Yeni Kaledoniyaya səfəri zamanı Yeni Kaledoniyada etiraz aksiyası keçirilib. Həmin etiraz aksiyası zamanı Yeni Kaledoniyanın müstəqilliyi uğrunda mübarizə aparan bir neçə fəal Fransa polisi tərəfindən həbs edilib.

Fevralın 27-də baş tutmuş aksiyada "Siyasi Məhbuslara Azadlıq" başlıqlı bəyanat yayılıb. Bəyanatda Fransanın beynəlxalq hüquqa hörmət etmədiyi, insan hüquqları ölkəsi olmadığı qeyd edilib və həbs edilmiş bütün siyasi məhbusların azadlığa buraxılması tələb edilib.

Bu aksiyada da həmişə olduğu kimi ölkəmizə hörmət əlaməti olaraq, Azərbaycan bayrağı dalğalandırılıb.

# Bakı Təşəbbüs Qrupu BƏM-də Yeni Kaledoniyaya dəstək verəcək




**Bakı Təşəbbüs Qrupu Beynəlxalq Ədalət Məhkəməsində Kanaki - Yeni Kaledoniyaya dəstək verəcək.**

Bu barədə təşkilatın təşəbbüsü ilə Türkiyənin İstanbul şəhərində keçirilən "Dekolonizasiya: İntibahın oyanışı" adlı beynəlxalq konfransın yekunlarına dair yayılan kommunikedə bildirilib.

Qeyd olunub ki, Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilmiş tədbir çərçivəsində Kanaki - Yeni Kaledoniyanın müstəqillik tərəfdarları və millətçilərdən ibarət nümayəndə heyəti fevralın 24-də Türkiyənin İstanbul şəhərində toplaşıblar: "Xatırladaq ki, 2023-cü ildə beynəlxalq qeyri-hökumət təşkilatı kimi yaradılmış Bakı Təşəbbüs Qrupunun əsas məqsədi kolonializm və neokolonializmə qarşı mübarizəni dəstəkləməkdir".

Bakı Təşəbbüs Qrupunun kommunikesində bildirilib ki, İstanbul konfransı bir tərəfdən kolonializmdən əziyyət çəkən xalqlarla həmrəyliyin nümayiş etdirilməsinə töhfə verdi, digər tərəfdən isə Fransanın kolonial gücünə qarşı mübarizə aparmaq məqsədi daşıyan siyasi fəaliyyət çərçivəsinin təsis edilməsinə imkan yaratdı.

Həmçinin vurğulanıb ki, Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən ölkələrin nümayəndələrinin, eləcə də BMT-nin ixtisaslaşmış institutlarının iştirak etdiyi konfransda Kanaki - Yeni Kaledoniyadan olan nümayəndə heyəti Fransa hökumətinin təşkil etdiyi kütləvi miqrasiyanı öz daxili qanunlarına uyğun olaraq qanunilləşdirmək üçün Emmanuel Makron hökumətinin atdığı addımlara qarşı, xüsusən də seçici kütləsinin sayını artırmağa hesablanmış addımları qınadığını bəyan edib.

"Bakı Təşəbbüs Qrupu Kanaki - Yeni Kaledoniyanın siyasi tarixinin böhran yaşanan bu dövründə ona dəstək verdiyini təkrar nümayiş etdirdi, regional və beynəlxalq təşkilatlarda, xüsusilə də Beynəlxalq Ədalət Məhkəməsi səviyyəsində fəaliyyətini davam etdirəcəyini bildirdi".

# Hadisənin qurbanları arasında 6 nəfər azərbaycanlı olub

## Ayxan Hacızadə Ermənistan XİN-in Sumqayıt hadisələri ilə bağlı bəyanatını şərh edib



**Ermənistan Xarici İşlər Nazirliyinin Sumqayıt hadisələri ilə bağlı bəyanatında ölkəmizə qarşı irəli sürdüyü iddialar tamamilə əsassız olmaqla yanaşı, tarixi faktların təhrif edilməsi və saxtalaşdırılmasıdır.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan XİN-in Sumqayıt hadisələri ilə bağlı bəyanatına dair şərhində bildirilib.

Onun sözlərinə görə, bu bəyanat, 1980-ci illərin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdidir:

"Ermənistan XİN-ə xatırladırıq ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların və ekstremist təşkilatların öncədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi.

Həmçinin qeyd edək ki, SSRİ Baş Prokurorluğu tərəfindən baş vermiş hadisə ilə bağlı cinayət işi açıldığı, nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanların müəyyən edildiyi hər kəsə məlumdur. Hadisənin qurbanları arasında 6 nəfər azərbaycanlının olması bu iğtişaşların azərbaycanlı əhali tərəfindən həyata keçirilmədiyini sübut edir".

Ayxan Hacızadə Ermənistan XİN-in diqqətinə çatdırıb ki, hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub və onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb: "Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən Eduard Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb.

27-29 fevral 1988-ci il tarixli Sumqayıt hadisələri ilə əlaqədar məhkəmə prosesinin nəticələri ilə bağlı təqsirkar bilinən 92 nəfər barəsində həbs cəzası verilib, həmçinin bir nəfər ölüm cəzası alıb.

Müqayisə üçün onu da qeyd etmək istərdik ki, 1980-ci illərin sonlarında Ermənistan SSRİ-də azərbaycanlıların tarix boyu sıx yaşadıqları rayonlardan 300 minə yaxın əhalinin zorla qovulması zamanı 200-dən çox azərbaycanlının ölümündə təqsirli olanlar barəsində heç bir tədbir görülməyib".

XİN rəsmisi qeyd edib ki, bununla yanaşı, Azərbaycan ərazilərinə qarşı hərbi təcavüz zamanı Ermənistanın Xocalı daxil olmaqla bir çox şəhər və kəndlərdə törətdiyi çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətləri törədənlərdən heç kimin bu günədək hüquqi məsuliyyətə cəlb olunmadığı Ermənistan XİN-ə məlumdur: "Ermənistan XİN-ə xatırladırıq ki, Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış suveren ərazisinin bir hissəsində Ermənistanın onilliklər boyu davam edən hərbi işğalına son qoyub, ərazi bütövlüyü və suverenliyini təmin edib.

Ermənistan tərəfinin guya ermənilərə qarşı "etnik təmizləmə" siyasəti həyata keçirildiyi, tarixi və dini abidələrin hədəf alındığı barədə iddialar səsləndirmək əvəzinə, nəinki indiki Ermənistan ərazisində, eləcə də işğal dövründə azərbaycanlılar və Azərbaycan irsinə qarşı törətdiyi cinayət əməllərinə nəzər yetirməsi daha faydalı olardı".

**Aygün**

# Xankəndidə uşaq bağçasının zirzəmisindən silah-sursat tapılıb

**Polis əməkdaşları Xankəndi şəhərində əməliyyat keçiriblər.**



Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Əməliyyat zamanı şəhərdə yerləşən uşaq bağçasının zirzəmisindən 1 dron, 1 dron üçün tripot, 29 müxtəlif markalı avtomat silahı, 4 tapança, 27 tüfəng, 416 qumbara, 113 alışdırıcı, 113 partlayıcı, 1178 patron darağı, 8508 mərmi, müxtəlif çaplı 24320 patron, 30 kapsul, 3 optik nişangah, 10 gecəgörmə cihazı, 50 rabitə qurğusu, 34 süngü-bıçaq, 57 əleyhqaz, 4 binokl, 4 penal dəsti və digər sursatlar aşkarlanaraq götürülüb.





# Qan çanağı...

## Bütün təxribatların başında Paris dayanıb

**Ötən həftə Paris və İrəvanda Fransa-Ermənistan əlaqələrinin genişlənməsi müzakirə olundu. Ermənistan Baş naziri Nikol Paşinyan Parisdə Fransa Prezidenti Emmanuel Makronla görüşdü. Ardınca Fransanın müdafiə naziri Sebastian Lekornu İrəvana səfər etdi. Ermənistanın müdafiə naziri Suren Papikyan Lekornu ilə hərbi əməkdaşlığa dair sənədlər paketi imzaladılar.**

Digər müqavilə müdafiə nazirinin müavini Karen Brutyanla adı açıqlanmayan fransız şirkətinin nümayəndəsi arasında imzalandı. Sazişlərin detalları açıqlanmadı. Bundan əlavə, Paris İrəvanda hərbi mövcudluğunu da artırmaq niyyətindədir. Fransa Ermənistana radarlar, gecəgörmə qurğuları tədarük edib. Yeni sazişlərlə Ermənistana qısa, orta və uzun məsafəli hava hücumundan müdafiə vasitələri tədarük ediləcək. Paris həmçinin İrəvana "Bastion" zirehli texnikalarının yeni partiyasını göndərəcək. Fevralın 23-də Paşinyan da fransalı nazirlə müdafiə sahəsində əməkdaşlığın inkişafı istiqamətində müzakirələr ediblər. Tərəflər Ermənistan Silahlı Qüvvələrində, o cümlədən hərbi təhsil, döyüş hazırlığı və digər sahələrdə islahatlar çərçivəsində Ermənistan-Fransa əməkdaşlığının vacibliyini vurğulayıblar. Anlaşmaya əsasən, Fransa Silahlı Qüvvələri üç mərhələdə Ermənistan Silahlı Qüvvələri üçün dağ şəraitində döyüş kursları keçirəcək. Ümumilikdə görünür ki, Fransa Ermənistanı yeni müharibəyə hazırlaşdırır. Bu hərbi dəstəklə yanaşı siyasi dəstək də hiss edilir. Parisdən Ermənistanı şirnikləndirən bəyanatlar səsləndirilir. 44 günlük müharibədə Putinin KTMT-nin müdaxiləsinin mümkünsüzlüyünü bildirməsi Ermənistanın Rusiya ilə bağlı ümidlərini puça çıxardı. Bu vəziyyətdə Ermənistanın Qərbə, Fransaya sığınması təbiidir. Parisin sınıq-salxaq silahları Ermənistana göndərməsi də bir növ başadüşüləndir. Paris həmin texnikaları əvvəl Ukraynaya göndərmək istəyib. Ancaq Kiyev bu silahların taktiki-texniki xüsusiyyətlərinin aşağı səviyyədə olmasını nəzərə alaraq, onlardan imtina etdi. Bu mənada Fransanın İrəvanı silahlandırması, bu ölkənin müdafiə nazirinin səfərində başlıca məqsəd Ermənistan ordusunun döyüş hazırlığını yüksəltməkdir. Fransa Ermənistanı bu dalandan çıxartmaq üçün çabalayır. Parisin məqsədi Afrikada itirdiyi mövqeləri Cənubi Qafqaz hesabına kompensasiya etməkdir. Azərbaycanın keçən ilin sentyabrında keçirdiyi antiterror əməliyyatından qabaq Fransa Xankəndiyə 500 nəfərlik dəstək missiyası göndərmək istəyib. Ancaq Azərbaycanın atdığı addım nəticəsində Parisin bu çirkin niyyəti boşa çıxdı. Şübhəsiz, Fransanın Ermənistanı silahlandırması, müdafiə nazirinin gəlişi Azərbaycana qarşı yönələn təzyiq elementidir. Bu gün Qərb mediasında genişlənən anti-Azərbaycan isterikası, Qərbdə və İrəvanda "Azərbaycanın hücuma hazırlaşması" haqda bəyanatlar bu müharibə üçün informasiya fonunun yaradılması məqsədi güdür. Qərb mediasında "Ermənistana təhdid olan Azərbaycan" haqda təbliğatın genişlənməsinin məqsədi ictimai rəyi planlaşdırdıqları təxribata hazırlamaqdır. Məqsəd Ermənistanın qəfil hücumla şərti sərhəddə bir neçə yüksəkliyi ələ keçirməsi və bununla da, danışıqlar prosesində onun mövqelərinin gücləndirilməsidir. Müharibə üçün Ermənistandakı və xaricdəki bütün revanşist qüvvələrin səylərini birləşdirmək tələb olunur. Makron Paşinyanın Parisə son səfəri zamanı onu Fransa Erməni Təşkilatlarının Koordinasiya Şurasının həmsədri Murad Papazyanla bir araya gətirib. Fransa daşnaklar və revanşist qüvvələrlə Paşinyanı "barışdırmağa" çalışır. Müharibəyə hazırlıq istiqamətində əsas addım Ermənistanın silahlandırılmasıdır. Hazırda Fransa bu prosesi öz üzərinə götürüb. Qərbdə və Ermənistanda "Azərbaycanın hücuma hazırlaşması" təbliğatı fonunda Azərbaycan Ordusunun Zəngilan istiqamətindəki mövqelərinin atəşə tutulması və hərbçimizin yaralanması, şərti sərhəddə atəşkəsin davamlı pozulması, Naxçıvan istiqamətində də məqsəd vəziyyəti gərginləşdirmək və Azərbaycanı günahlandırmaqdır. Lakin unutmasınlar ki, Azərbaycan ən müasir silah və hərbi texnikaya sahib güclü Orduya malik bir ölkədir. Fransa nə qədər çabalasa da, Ermənistan ordusu Azərbaycan Ordusunun qarşısında aciz olaraq qalmaqda davam edəcək. Fransanın bütün cabalarına rəğmən onlar balansı heç zaman Ermənistanın xeyrinə dəyişə bilməyəcək.

> Fransa Ermənistandan Azərbaycana və Türkiyəyə qarşı əməliyyatları həyata keçirə biləcək bir qərargah kimi istifadə etməyə çalışır

**Millət vəkili Elman Nəsirov deyib ki, Makronun Paşinyanla görüşdən sonra verdiyi açıqlamalar Fransa dövlət başçısının köhnə ampluasında olduğunu göstərdi.** Deputatın sözlərinə görə, Makron son insidentlərlə bağlı Ermənistanı müdafiə edir, eyni zamanda Azərbaycana təzyiq göstərmək istəyir: "Fransa Ermənistanı təhlükəsizlik və müdafiə adı altında silahlandırır. Bu gün Fransanın Ermənistana göndərdiyi silahlar revanşizmin gücləndirilməsi deməkdir. Görünür, rəsmi Paris Üçüncü Qarabağ müharibəsi düşüncələrinə qapılıb. Afrikadan qovulan Fransa öz strateji məğlubiyyətini Cənubi Qafqaz hesabına kompensasiya etmək istəyir və bunun üçün Ermənistandan istifadə olunur. Ermənistanın davranışları bölgədə konfranstasiya mühitinin formalaşmasına gətirib çıxara bilər. Silah alış-verişi kontekstində ortaya çıxan digər bir məqam Ermənistandakı konstitusiya islahatları ilə bağlıdır. İslahatlarda Ermənistanda başqa bir ölkənin hərbi bazasının saxlanılması məsələsi də yer alır. Bu isə o deməkdir ki, Rusiya Gümrüdəki 102-ci hərbi bazadan imtina etməlidir. Belə aydın olur ki, Ermənistanda konstitusiya islahatları adı altında Rusiyanı Fransa ilə əvəz etmək planları icra olunur. Bu isə yaxın bir zamanda Rusiya və Ermənistan arasında çox ciddi gərginliyin formalaşmasına gətirib çıxaracaq. Bunun Paşinyan hakimiyyəti üçün mürəkkəb nəticələr verəcəyini proqnozlaşdırmaq olar".

> "Görünür, rəsmi Paris Üçüncü Qarabağ müharibəsi düşüncələrinə qapılıb. Afrikadan qovulan Fransa öz strateji məğlubiyyətini Cənubi Qafqaz hesabına kompensasiya etmək istəyir və bunun üçün Ermənistandan istifadə olunur"

**Siyasi şərhçi Aqşin Kərimov da bildirib ki, Fransa və Ermənistan Azərbaycanı provokasiyaya çəkir, lakin Bakı strateji təmkin göstərərək cavab üçün uyğun zaman gözləyir:** "Fransa Ermənistandan Azərbaycana və Türkiyəyə qarşı əməliyyatları həyata keçirə biləcək bir qərargah kimi istifadə etməyə çalışır. Paris və İrəvan Azərbaycan üzərindən Rusiyaya qarşı müqavimət oxu yaradıb. Rəsmi Bakını NATO ilə Moskva arasında rəqabət arasında sıxışdırmağa cəhd edir. Azərbaycan isə geosiyasi oriyentasiyada üstünlük təşkil edən strateji məramını saxlamaq üçün balanslaşdırma aktına daha böyük diqqət yetirir. Azərbaycan bunun yaxın və ya bir qədər uzaq gələcək üçün doktrinasını quracağı çəkindirmə aktları ilə mükəmməlləşdirə bilər. Azərbaycan çəkindirmə üzrə portfelini qüvvətləndirmək üçün Ermənistana qarşı alternativ əməliyyat hüququna müraciət etməyi seçə bilər. Ermənistan üzərindən yaradıla biləcək daha fərqli regional reallıq Fransanın da müqavimətini sındırmaq gücünə malikdir. Lakin Azərbaycan Müdafiə Nazirliyi Ermənistanı regionun təhlükəsizlik balansını dağıtmağa çalışan qüvvələrə qarşı hərəkətə çağırır. Bu təmkinin mümkün səbəbi regiondakı həssas təbəqələrin tərpənmə riskidir, amma təhdid layları yerindən oynasa belə, Bakının özünü müdafiə edəcək gücü və potensialı mövcuddur. Ermənistan isə müdafiə üçün praktiki boşluqlardadır, nə hərbi resurslar, nə silah arsenalı İrəvana xoşbəxt qorunma bəxş edə bilir. Hərçənd İrəvan Fransanın Ermənistanı silahlandırmasını özü üçün yeganə xilas şansı kimi görməkdədir. Bununla belə, həmin silahların Azərbaycan əleyhinə geosiyasi gerçəklik yarada bilmək iqtidarı yoxdur, çünki reallıq formalaşdırmaq üçün hərbi resurslar böyükölçülü potensiala malik olmalıdır".

İsmayıl

# Gərginlik Tehranın işinə yarayır

## Çünki təhlükəsizlik məsələsi yaradaraq daxildə baş verən etirazları susdurur



**Tehran hökuməti 2009-cu ildən Əl-Qaidəyə İrandan keçən əsas koordinasiya xətti vasitəsilə öz terror fəaliyyətlərini asanlaşdırmağa, vəsaitləri və döyüşçüləri Cənubi Asiya, Suriya və başqa yerlərə köçürməyə icazə verib.**

Bu barədə ABŞ Dövlət Departamenti yazılı açıqlamasında bildirib.

"İran Əl-Qaidə üçün təhlükəsiz sığınacağa çevrilib. Əl-Qaidə rəhbərlərinin bu ölkədə olması barədə sübutların mövcudluğuna baxmayaraq, İran bunu inkar edir", - açıqlamada qeyd olunub.

Həmçinin bildirilib ki, 1979-cu ildən bəri İran Yaxın Şərqdə qeyri-sabitliyin əsas amili kimi çıxış edir: "İran terrorizmin əsas himayəçisidir. Bu ölkə Hizbullah, HƏMAS kimi proksi qrupları və terrorçular vasitəsilə Bəhreyn, İraq, Livan, Suriya və Yəməndə geniş spektrli terror və digər qeyri-qanuni fəaliyyətlərə şərait yaradır".

**İranın proksi qüvvələr vasitəsilə bölgədə hegemonluq yaratmağa çalışdığını vurğulayan Türkiyədə yaşayan Güney azərbaycanlı siyasi şərhçi Məhsa Mehdili "Şərq"ə bildirib ki, Tehran hakimiyyəti əvvəlcə uyğun gördüyü qrupları ideoloji olaraq yetişdirir, daha sonra isə həmin qrupların əlinə silah verir:** "İran onsuz da Yəmən, İraq, Suriya və Livanda bəslədiyi qüvvələri inkar etmir. Eyni zamanda İranın daxili siyasəti də iflas edib. İndi İranın əsas siyasəti dövlətin maraqlarını və hegemonluğunu gücləndirməkdir. Buna görə də ideologiyası zəif olan qruplardan istifadə edir. Həmçinin bölgədə gərginlik və qeyri-sabitliyin əsas səbəbkarı da İrandır. Gərginlik Tehranın işinə yarayır. Çünki təhlükəsizlik məsələsi yaradaraq daxildə baş verən etirazları susdurur və bölgədə maraqlarını qoruyur. Digər tərəfdən isə bunlar nüvə silahları ilə bağlı əsaslandırmaların bəhanələri kimi də qiymətləndirilir. İran daxili siyasətdə xalqa rifah və demokratiya gətirməkdən tamamilə uzaqlaşaraq bölgədə hərbi bazaya çevrilib. Bununla da, həm öz daxilində silahlanır, həm proksi qüvvələr vasitəsilə savaşını davam etdirir".

Şahanə Ziyad

# AŞPA Fransanın aqibətini yaşayır

## Səməd Seyidov: "Avropa Şurası da Fransanın oyununu oynadığına görə özünü regiondan xaric etdi"



**Macarıstan Milli Assambleyasının Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri Zolt Nemet AŞPA-nın qış sessiyasında parlamentin Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinə etirazla bağlı qəbul edilmiş qətnamə ilə əlaqədar AŞPA sədri Teodoros Russopulosa məktub göndərib.**

Məktubda qeyd olunur ki, bu qərarın qəbulu "ortaq maraq doğuran məsələlər üzrə konstruktiv idarələrarası dialoq və məsləhətləşmələr praktikasına xələl gətirdi".

"Bu kontekstdə hesab edirik ki, Azərbaycan nümayəndə heyətinin təşkilatda iştirakı məsələsi təcili həll olunmalıdır", - Nemet qeyd edib.

Macarıstan nümayəndə heyətinin rəhbəri AŞPA sədrini siyasi qruplarla birlikdə "qətiyyətli addımlar atmağa" və Azərbaycanın parlament nümayəndə heyətinin təcili olaraq AŞPA-da işə qayıtmasına imkan yaratmağa çağırıb.

Nemet əmin olduğunu bildirib ki, bu, Azərbaycana "nəinki Avropa Şurasının məruzəçilərinin ölkəyə dəvət olunması və onların səfərinin təşkili üçün şərait yaratmağa, həm də Parlament Assambleyasını ölkədə keçiriləcək parlament seçkilərini müşahidə etmək üçün dəvət etməyə" imkan verəcək.

**Məktubunu "Şərq"ə dəyərləndirən millət vəkili Səməd Seyidov bildirib ki, getdikcə bu cür məktubların artdığının şahidi oluruq:** "Müxtəlif ölkələr və diplomatlar AŞPA-ya müraciət edərək bu utanc addımın tezliklə ləğv edilməsinin Avropa Şurasının öz nüfuzuna xeyri olacağını bildirirlər. Hazırda top onların tərəfindədir və Azərbaycanla bağlı qərarı nə vaxt ləğv edəcəkləri bəlli deyil. AŞPA bu cür addım nümayiş etdirməklə özlərini çətin vəziyyətə saldı. Azərbaycan bundan sonra da inkişaf edir və Avropa ilə də əlaqələrini yüksək səviyyədə tutur. Münhendə keçirilən Təhlükəsizlik Konfransı buna əyani sübutdur. Ancaq Avropa Şurası kənarda qaldı. Əvvəlcə jurnalistlər Avropa Şurasındakı vəziyyətlə bağlı zəng edib məlumat alırdı. İndi isə bununla bağlı informasiya əldə etmirlər. Çünki Avropa Şurası artıq jurnalistlər üçün də maraqsızdır. Öz qeyri-obyektivliyi ilə seçilən təşkilat Fransanın aqibətini yaşayır. Fransa sülh danışıqları prosesində vasitəçi mövqeyində idi. Amma balansı qoruya bilmədiyi üçün özü-özünü vasitəçilikdən kənarlaşdırdı. Avropa Şurası da Fransanın oyununu oynadığına görə özünü regiondan xaric etdi".

Şahanə Ziyad

# Deputatdan təklif...

## Çoxuşaqlı ailələrin sayına yenidən baxılması məqsədəuyğundur



Ekspert isə hesab edir ki, indiki halda qeyd edilən təklif iqtisadiyyatımızın artım templərinə uyğun deyil

**"Azərbaycanda uşaqlı ailələr üçün müavinət və eləcə də, digər güzəştlər beşdən çox uşağı olan qadınlara şamil olunur. Hazırda beşdən çox uşağı olan qadınlara sosial müavinətin aylıq məbləği hər uşaq üçün 105 manatdır. Bu o deməkdir ki, hazırda ailədə 18 yaşına çatmamış 6 uşaq varsa, həmin ailəyə aylıq 630 manat (hər uşaq üçün 105 manat) müavinət ödənilir. Eyni zamanda proporsional olaraq çox uşaqlı ailələrdə qadınlar daha tez pensiyaya çıxmaq hüququ əldə edirlər.**

Bu sözləri deputat Vüqar Bayramov deyib. O qeyd edib ki, çoxuşaqlı ailələrin daha yaxından dəstəklənməsi təqdirəlayiqdir: "Azərbaycan təbii artıma malik olan ölkələrdən olsa da, belə təşviqedici metodlar ilə bu tendensiyanın qorunub saxlanması çox vacibdir. Bununla yanaşı, çoxuşaqlı ailələrin sayına yenidən baxılması və dəyişdirilməsi məqsədəuyğundur. Belə ki, keçmiş ittifaq dağılandan sonra çoxuşaqlı ailələrin sayında kəskin azalmalar müşahidə edilməkdədir. Bu isə "çoxuşaqlı ailə" anlayışına yenidən baxılmasını zəruri edir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, sonuncu siyahıyaalmada 2 milyon 293 min ailə qeydiyyatdan keçib. 1 milyon 347 min ailədə isə 18 yaşadək uşaqlar var. Say baxımdan ikiuşaqlı ailələr üstünlük təşkil edir: 557 min ailə. 6 və daha çox uşağı olan ailələrin sayı isə 16 min 169-dır. 9 332 ailədə altı, 3 565 ailədə yeddi, 1 748 ailədə səkkiz, 1 524 ailədə isə doqquz və daha çox uşaq var. Göründüyü kimi, 6 və daha çox uşağı olan ailələrin sayı ölkə üzrə ümumi ailələrin sayı ilə müqayisədə xeyli azdır".

Deputatın sözlərinə görə, bu baxımdan, 3-dən çox uşağı olan ailələrə müavinətin verilməsi və pensiya yaşında güzəştin edilməsi baş verərsə, bu, daha çox ailəni əhatə edə bilər. Hazırda 110 min ailədə 4 və daha çox uşaq var: "Bu isə o deməkdir ki, çoxuşaqlı ailə anlayışına yeni yanaşma olduğu halda 110 min ailə bu növ müavinətdən faydalana bilər. Bu baxımdan, 3-dən çox uşağı olan ailələrə müavinətin verilməsi və pensiya yaşında güzəştin edilməsinin maliyyə yükünün hesablanması və buna uyğun qərarın verilməsi məqsədəuyğun olardı".

**İqtisadçı-ekspert Əyyub Kərimli isə "Şərq"ə açıqlamasında deyib ki, "uşaq pulu" və çoxuşaqlı ailələrə aylıq müavinətlər daha çox demoqrafik vəziyyəti zəif olan ölkələrdə tətbiq edilir:** "Doğum səviyyəsinin aşağı düşdüyü, ailələrdə 1 və ya ümumiyyətlə, uşaq olmadığı hallarda müxtəlif subsidiyalar və güzəştlər tətbiq edilir. Azərbaycanda isə demoqrafik problemlə bağlı heç bir çətinlik yoxdur. Əhalinin sayında hər il artım dinamikası müşahidə edilir və sayımız 11 milyona yaxınlaşır".

**Ə.Kərimlinin fikrincə, bütün dövlətlərdə demoqrafik statistika nəzarətdə saxlanılmalı və doğum sayı ilə iqtisadi artım arasında mütənasiblik olmalıdır:** "Əhalinin sayı artdıqca, təbii olaraq iqtisadi tələblər də artır. Ona görə də indiki halda demoqrafik artımı stimullaşdırmaq üçün üçdən çox uşağı olan ailələrə müavinətin verilməsi və pensiya yaşında güzəştin edilməsi təklifini məqbul hesab etmirəm. Ölkəmizin iqtisadi durumu bu dəyişikliyə hazır deyil. Əgər təklif edilən dəyişiklik edilsə, ailə planlamasına nəzarət itəcək. İnsanlar dövlətə arxayın olub, daha çox uşaq dünyaya gətirəcək. Çoxuşaqlı ailənin isə həm sosial məsuliyyəti çoxalır, həm də iqtisadi tələbləri artır. Zənnimcə, indiki halda qeyd edilən təklif iqtisadiyyatımızın artım templərinə uyğun deyil. Bəlkə də gələcəkdə ehtiyac olacaq, amma indiki halda bu addımın atılması demoqrafik partlayışa gətirib çıxara bilər ki, növbəti illərdə bunun sosial fəsadları ilə üzləşə bilərik".

Şeymən



*“Rəsmi Bakının konkret mövqeyi var ki, Fransanın olduğu hər hansı platformada Azərbaycan iştirak etməyəcək”*

“Fransa ilə rəqabətdə olan Almaniya üzərindən Parisin təsir və təzyiq imkanları demək olar ki, yoxdur”

# "Makron danışıqlara müdaxilə edə bilməyəcək"

## Sərdar Cəlaloğlu: “Əgər Paris buna cəhd edərsə, Azərbaycan tərəfi dərhal müzakirələrdən çəkiləcək”

**Azərbaycan və Ermənistan XİN başçılarının növbəti görüşünün vaxtı və yeri açıqlanıb. Ermənistan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ani Badalyan deyib ki, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan və Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun növbəti görüşü 28-29 fevral tarixlərində Berlində keçiriləcək. Görüş Münhendə üçtərəfli görüş zamanı əldə olunmuş razılaşma əsasında baş tutacaq. Qeyd edək ki, ötən gün Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov da yaxın günlərdə görüşün baş tutacağını söyləmişdi.**

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin gözlənilən görüşü iki ölkə arasında fevraln 17-də Münhendə bərpa olunmuş sülh danışıqlarının növbəti mərhələsi kimi qiymətləndirilə bilər. Son günlər Azərbaycan-Ermənistan şərti sərhədində vəziyyətin gərgin olmasına baxmayaraq, Münhendə əldə olunmuş razılaşmaların davam etdirilməsi qərara alınıb. Ermənistanın Baş naziri Nikol Paşinyan Afinada yunan həmkarı ilə görüşü zamanı Berlində sülh sazişi üzrə irəliləyişə nail olacaqlarına ümid etdiyini deyib. Xatırladaq ki, Almaniya kansleri Olaf Şoltsun təşkilatçılığı ilə üçtərəfli və ikitərəfli formatda baş tutan görüşlərdə sülh sazişinin mətninə aid konkret məsələlər üzrə müzakirələrdə razılıqlar əldə olunub. Ermənistan xarici işlər nazirinin danışıqlardan yayınması sülh prosesinin yenidən pozulmasına gətirib çıxara bilər. Müzakirə mövzusunun Ermənistan tərəfinin yanvarın 4-də Azərbaycana təqdim etdiyi 6-cı paketin Bakı tərəfindən redaktə edilərək yenidən İrəvana göndərilmiş son variantı ola bilər. Ermənistan mediasının yaydığı məlumatlara görə, həmin təklifdə söhbət sərhədlərin delimitasiyası və demarkasiyasının hansı xəritələr əsasında aparılmasından gedir. Ermənistan rəsmiləri sərhədlərin SSRİ-nin səlahiyyətli orqanları tərəfindəın təsdiq edilmiş 1991-ci il xəritələri əsasında, yəni Almatı Bəyannaməsinin imzalandığı dövrə uyğun müəyyənləşməsini təklif edir.

*Almaniyada keçirilməsi nəzərdə tutulan görüşlə bağlı düşüncələrini ”Şərq”ə danışan Azərbaycan Demokratik Partiyasının sədri Sərdar Cəlaloğlu bildirib ki, tərəflər arasındakı sülh danışıqlarında Almaniya formatının ortaya çıxması səbəbsiz və təsadüfi deyil...*

**- Sərdar bəy, Münhen razılaşmasına görə, Azərbaycan-Ermənistan xarici işlər nazirləri arasında növbəti görüş Berlində olacaq. Sizcə, bu görüş Brüssel formatının davamıdır, yoxsa 4-cü formatdır?**

- Məncə, Berlində keçiriləcək görüş artıq dördüncü platformadır. Almaniya variantının ortaya çıxmasının əsas səbəbi odur ki, Brüssel formatında Fransa tərəflərin müzakirələrinə, danışıqlar prosesinə həddindən artıq müdaxilə edir. Nəzərə alaq ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel də fransızdır. Hazırda Azərbaycanın Fransa ilə münasibətləri olduqca gərgindir. Fransa açıq şəkildə Ermənistanı hərbi cəhətdən dəstəkləyir. Fransanın iştirakı ilə və Parisin təsiri altında olan bir müstəvidə Ermənistanın hansısa normal danışıq aparması qeyri-mümkündür. Fevralın 7-də keçirilən prezident seçkisindən sonra Azərbaycan dövlət başçısı dərhal Münhen Təhlükəsizlik Konfransında sülh danışıqlarının davam etdirilməsinə razılaşdı. Berlində görüşlərin təşkili alternativ variantdır. Eyni vaxtda həm Avropada Azərbaycan-Ermənistan arasında təmaslar qurulur, həm də prosesdə Paris iştirak etmir. Bu məsələdə Azərbaycanı təmin edən faktor odur ki, Fransanın Berlində keçiriləcək görüşlərə heç bir təsir imkanları olmayacaq.

**- Almaniyanın təşəbbüslərinə etimad göstərildi. Berlin Paris kimi bir müddət sonra proseslərə müdaxiləyə cəhd göstərərmi?**

- Almaniya və Fransa həm geopolitik, həm də Avropadaxili münasibətlər baxımından bir-biri ilə rəqabətdədir. Almaniyanın özü də beynəlxalq proseslərdə rəqabətə girir. Almaniyanın seçilməsi də təsadüfi deyil. Berlin Azərbaycan və Ermənistan arasındakı danışıqlarda, sülh müzakirələrində bitərəfdir. Almaniya Fransa kimi Ermənistanı silahlandırmır. Çalışır ki, Bakı ilə İrəvana eyni məsafədə dursun. Avropa Birliyinin maliyyələşməsində də Almaniyanın qeyri-adi dərəcədə rolu var. Birliyin ən böyük donor dövləti məhz Almaniyadır. Bu da ondan xəbər verir ki, Almaniyanın Avropa Birliyinə də təsiri var. O baxımdan Berlin məkanı hər baxımdan yeni müstəvidir. Yeni müstəvi bizi müəyyən mənada Fransanın Avropadakı oyunlarından da kənarda saxlayır. Bununla həm də, Azərbaycanın Avropa Birliyində iştirakını təmin etmiş oluruq.

**- Berlin müstəvisində sülh sazişi ilə bağlı müsbət nəticənin əldə olunması nə dərəcədə realdır?**

- Açığı deyim ki, Almaniyada görüşün keçirilməsi Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına xidmət etməkdən daha çox Avropa ölkələrinin Cənubi Qafqazda maraqlarının bu və ya digər şəkildə təmin olunmasına hesablanıb. Avropa Birliyi Fransanın iştirakı etiraz doğurduğuna və mümkün olmadığına görə, bu dəfə Almaniya vasitəsilə Cənubi Qafqazda gedən proseslərdə iştiraka cəhd göstərir. Azərbaycan rəhbərliyinin buna razılıq verməsi indiki məqamda bizim üçün əlverişli və əhəmiyyətlidir. Ermənistanın yalnız Moskvanın nəzarəti altında Azərbaycanla sülh sazişi imzalaması birbaşa Rusiyanın maraqları çərçivəsində həyata keçiriləcək. Bu da nəinki Azərbaycanın, eyni zamanda Ermənistanın da dövlət maraqlarına ziddir. Ona görə alternativ müzakirə müstəvilərinin olması imkan verir ki, sülh müqaviləsi hərtərəfli, düşünülmüş, beynəlxalq hüquqa uyğun şəkildə bağlansın və uzunmüddətli olsun. Sülh müqaviləsi hansı müstəvidə imzalanacaqsa, həmin platforma sazişin gələcəkdə pozulmasının qarşısını almaq baxımından qarant rolunu oynayacaq. Yəni Azərbaycan və Ermənistan Qərb müstəvisində sülh müqaviləsini imzalayarsa, Avropa qeyri-rəsmi də olsa, müqaviləyə əməl edilməsində qarant tərəf sayılacaq. Bu, Rusiyanın Cənubi Qafqaz üzərində oynadığı oyunlarını pozmaq baxımından həm Avropa, həm də Azərbaycan və Ermənistan üçün önəmlidir.

**- Sülh danışıqlarında Rusiyanın vasitəçiliyindən birmənalı imtina etməliyikmi?**

- Azərbaycan Moskva müstəvisindən tam uzaqlaşmayıb və düşünürəm ki, birmənalı imtina etməməlidir. Müxtəlif müstəvilərdən gələn təhlükələr məhz fərqli formatlar üzərindən neytrallaşdırılmalıdır. Əslində, indiki şəraitdə və tezliklə Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasını gözləmək doğru deyil. Çünki hər platforma müəyyən siyasi oyunlarla əlaqəlidir. Azərbaycan da bu oyunlar arasında öz maraqlarını ön planda tutaraq oynamağı bacarmalıdır. İstənilən danışıq müstəvisində ilk növbədə dövlətin və xalqın maraqları qorunmalıdır. Həmçinin son dönəmdə Azərbaycanın Avropa Birliyi ilə münasibətlərində gərginlik var. Berlin platformasından istifadə edilməsi münasibətlərin yenidən tənzimlənməsində də olduqca faydalı gedişdir.

**- Fransa prosesin birbaşa içində olmasa da, İrəvan hökumətinin əliylə danışıqlara uzaqdan müdaxilə edə bilərmi?**

- Yox, Fransa bunu da edə bilməyəcək. Brüssel müstəvisində vasitəçi özü Fransa idi və orada güclü mövqeyi olduğuna görə tərəflər arasındakı danışıqlara istədiyi vaxt müdaxilə imkanına sahib idi. Fransa ilə rəqabətdə olan Almaniya üzərindən Parisin təsir və təzyiq imkanları demək olar ki, yoxdur. Almaniya və Fransanın Cənubi Qafqaz regionu ilə bağlı maraqları toqquşur. Berlin heç vaxt imkan verməz ki, Makron birbaşa və dolayı yolla danışıqlara müdaxilə etsin. Əgər Paris buna cəhd edərsə, Azərbaycan tərəfi dərhal müzakirələrdən çəkiləcək. Rəsmi Bakının konkret mövqeyi var ki, Fransanın olduğu hər hansı platformada Azərbaycan iştirak etməyəcək. Fransa açıq şəkildə Ermənistanı silahlandırır və Azərbaycana qarşı düşmənçilik nümayiş etdirir. Fransa özünün bitərəf yox, açıq tərəf olduğunu aşkar ortaya qoyur. Bakı da tam haqlı olaraq Fransanı danışıqlara buraxmaq istəmir.

**- Danışıqlar fonunda Ermənistan tərəfinin törətdiyi təxribatların məqsədi nədir?**

- Ermənistan uzun müddət Rusiyanın təsiri altında, nəzarətində olduğuna görə, İrəvanın Moskvadan asanlıqla uzaqlaşması qeyri-mümkündür. Çünki dövlət strukturlarında və orduda Rusiyanın mövcudluğu çox yüksəkdir. Artıq hamıya bəllidir ki, Ermənistan tərəfindən xüsusən görüşlər zamanı törədilən təxribatların arxasında Paşinyan hökuməti dayanmır. Ermənistanda Kremlin nəzarətində olan qeyri-qanuni qüvvələr var. Şərti sərhədlərdəki təxribatlara baxmadan proseslərin aparılması göstərir ki, Paşinyan hakimiyyətinin son günlər baş verənlərə o qədər də aidiyyəti yoxdur. Təxribat törətmək istəyən güclər və onların məqsədi bəllidir. Onu da qeyd edim ki, hazırda Ermənistan Rusiyadan uzaqlaşmaq istəyir. İrəvanın Berlində keçiriləcək danışıqlara razılıq verməsi də bununla bağlıdır. Moskvanın İrəvana təsir rıçaqları xeyli azalıb. Açıq müharibəyə başlamaq, birbaşa müdaxilə imkanı da yoxdur.

**- Qərb ölkələrinin Ermənistana yerləşməsi İranın mövqeyini dəyişə bilərmi?**

- İran Cənubi Qafqaz bölgəsində ciddi oyunçu deyil. İran anlayır ki, bu məsələlərə qarışmaq ona başağrısı gətirəcək. Tehranın bəyanatları, ara-sıra atdığı addımlar regonda ”mən də varam” mesajını verməkdir. İranın Azərbaycan, elə Ermənistan üzərində də heç bir təsir mexanizmi yoxdur.

**İsmayıl Qocayev**

# Ağdamlılar haqlıdır

## Yeni tikiləcək stadiona Allahverdi Bağırovun adının verilməsi daha doğrudur





**Millət vəkili, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa ağdamlıları ayağa qaldırıb. Səbəb, millət vəkilinin Ağdamda yeni tikiləcək stadiona hazırda ”Qarabağ” futbol klubunun baş məşqçisi Qurban Qurbanovun adının verilməsi təklifidir. Məhz bu təklif çılğın ağdamlıları hövsələdən çıxarıb. Hərçənd Fazil bəy təklifin məğzini ətraflı izah edib.**

Lakin Ağdam ictimaiyyəti sakitləşənə oxşamır. Ağdam ictimaiyyəti, ələlxüsus da Milli Qəhrəman Allahverdi Bağırovun adı (xatirəsi) varkən başqa birisinin onu kənara itələyə biləcəyi ilə heç cür barışmırlar. Həm də bu sadə səbəbdən ki, A.Bağırov vaxtilə ”Qarabağ” futbol klubunun oyunçusu və baş məşqçisi olub. Qeyd edək ki, Fazil Mustafa özünün izahında regionlaşdırmanın əleyhinə olduğunu, A.Bağırovun bütün Azərbaycanın milli qəhrəmanı olmasını, hətta onun xatirəsinin, məsələn, Naxçıvanda da əbədiləşdirilməsi tərəfdarı olduğunu qeyd edib (hərçənd, bu bir az utopik səslənir - M.R.). Təklifi bəyənməyənlər də yenə öz mövqelərində qalırlar.

**Məlum müzakirələrə bir şuşalını da biz cəlb etdik. Necə deyərlər, ”kənar baxış”. Yazıçı-publisist Kərim Kərimli ”Şərq”ə bunları dedi:**

- Doğrusu, bu elə bir mövzu, elə məsələdir ki, nə qədər istəsən müzakirə etmək, hansı tərəfə istəsən ”Hənifə saqqızı” kimi dartıb uzatmaq olar. İlk baxışdan hamı haqlıdır, ancaq bir az dərinə gedəndə bütün tərəflərdə qüsur tapmaq olar. Bir neçə il bundan əvvəl mənim böyük qardaşım Arzuman da Qurban Qurbanovla bağlı bir təklif irəli sürmüşdü. Q.Qurbanovun ”Qarabağ” futbol komandası ilə bağlı fəaliyyətindən ruhlanan, fərəhlənən qardaşım sevincindən, bu sevincdən yaranan emosiyalardan vəcdə gələrək demişdi ki, ona Azərbaycanın Milli Qəhrəmanı adı verilsin. O vaxt qardaşımı da qınayanlar tapılmışdı. Ancaq heç bir ideyanın qarşısını almağa, təşəbbüsü boğmağa çalışmaq lazım deyil. Təkliflərin olmasına şərait yaratmaq lazımdır. Ortaya çıxan yüz təklifdən hətta bircəciyi belə ağıllı fikir olarsa, bundan cəmiyyətimiz, ölkəmiz faydalanacaq. Ona görə də heç bir təklifi süngü ilə qarşılamaq olmaz. Həmin təklifin əsassız, faydasız, hətta yararsız və ziyanlı olduğunu sübut edə bilirsənsə, buyur, sən də öz fikrini bildir, bəlkə sənin düşüncələrin daha səmərəli, daha gərəkli olacaq?!.

### Kərim Kərimli: “Qurban Qurbanovun fəaliyyətinin qiymətləndirilməsini başqa formada da həyata keçirmək olar”

**K.Kərimli bildirdi ki, millət vəkilinin Q.Qurbanovun fəaliyyətini, zəhmətini qiymətləndirmək barədə təklifini bəyənir, alqışlayır və dəstəkləyir. Lakin:**

- Ağdamlıları da başa düşürəm və qınaya bilmərəm. Fazil bəyin təklifi konkretdir: ”Ağdamda tikiləcək stadiona Q.Qurbanovun adı verilsin”. Amma məşqçinin fəaliyyətinin qiymətləndirilməsini başqa formada da həyata keçirmək olar. Mütləq deyil ki, onun adı hökmən stadiona verilsin. Ona ölkəmizin yüksək fəxri adını vermək, dövlətin ali ordenlərindən biri ilə təltif etmək də olar. Hər şeydən qabaq ona görə ki, fikrimcə, insanın adının nəyəsə, harasa, küçəyə, gəmiyə, meydana, məktəbə, lap elə stadiona verilməsi daha çox həmin adın, həmin şəxsin adının əbədiləşdirilməsi məqsədilə edilir. ”Adın əbədiləşdirilməsi” ifadəsi isə daha çox artıq dünyasını dəyişənlərə aiddir. Qəti şəkildə belə olmasa da, əsasən belədir. ”Qarabağ”ın fədakar baş məşqçisi isə Allaha şükür, cavan oğlandır və Allahın izni ilə hələ uzun illər Azərbaycan idmanına xidmət göstərmək potensialı və imkanı var. Allah ona uzun ömür və möhkəm can sağlığı versin. Odur ki, Qurban bəyi başqa şəkildə də təltif etmək olar. Fazil bəy öz açıqlamasında Qurbanovun fəaliyyətini qəhrəmanlıq kimi xarakterizə edir, düz də eləyir. Elədirsə, onda mənim qardaşımın vaxtilə verdiyi təklif daha uyğun gələr. Bu illər ərzində, millət vəkili demişkən, böyük qəhrəmanlıq edən insana Milli Qəhrəman adının verilməsində nə pis cəhət ola bilər ki? O olmazsa, onda ”Qarabağ”ın şöhrətini dünyaya yayan məşqçiyə ”Şöhrət” ordeni vermək olar, yaxud komandanın şərəfini ləyaqətlə qoruduğuna görə onu ”Şərəf” ordeni ilə təltif etmək mümkündür.

**K.Kərimli yeni tikiləcək stadiona Allahverdi Bağırovun adının verilməsini istəyənləri həm haqlı, həm də mütləq haqlı hesab etmir:**

- Bəli, sovet dövründə Ağdamda idmanın, o cümlədən müəyyən qədər də futbolun inkişafı həm də rəhmətlik Allahverdi bəyin adı ilə bağlı olub. Digər tərəfdən, Bağırov Ağdam və Azərbaycan uğrunda canından keçib. Əgər stadiona onun adı verilsə, pis olmaz, ancaq bu alınmasa, adı stadiona verilməsə də faciə olmaz. Çünki Ağdam, əhalisinin sayı iki yüz min civarında olan bir şəhərə çevriləcək və orada qəhrəmanın xatirəsini əbədiləşdirmək məqsədilə adının verilməsi mümkün olan kifayət qədər ”maddi” və ”qeyri-maddi” obyekt olacaq. Odur ki, məsələni sivil qaydada müzakirə edərək ortaq məxrəcə gəlmək olar. Hər iki şəxs Azərbaycanın seçilmiş övladlarındandır və hər ikisini xalqımız çox sevir. Sırf ağdamlılara gəlincə isə onların adından danışmaq ixtiyarım olmasa da, tanıdığım adamlara, dostlarıma və müşahidələrimə istinadən deyə bilərəm ki, Ağdam Qurban Qurbanovu çox sevir və olduqca yüksək qiymətləndirir. Stadiona onun adının verilməsinə etiraz bildirənlər də Qurbanovu az istədiklərinə görə deyil, əksinə, onun adının istənilən başqa formada daha da yüksək bir addımla şərəfləndirməyin mümkünlüyünə inandıqlarına görə bunu edirlər. Bağırov isə Vətən uğrunda şəhid olub və fiziki olaraq aramızda yoxdur. Onun adının əbədiləşdirilməsini, özü də doğma Ağdamında, necə deyərlər, ”öz profilinə” uyğun və gözəçarpan bir yerdə əbədiləşdirilməsini prioritet hesab edirlər.

**Məlahət Rzayeva**

**Azərbaycanda bələdiyyələrin birləşdirilmə proseduru müəyyənləşir. Bu, ”Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.**



# İcra hakimiyyətləri ləğv olunmalıdır

## Onların bütün səlahiyyətləri bələdiyyələrə verilməlidir

Layihəyə əsasən, əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla digər bələdiyyələrə birləşdiriləcək. Belə olarsa, ölkədəki 1605 bələdiyyə 500-ə düşəcək. Birləşən bələdiyyələrin adlarının necə müəyyənləşəcəyi də məlum olub. Layihəyə əsasən, ad birləşən bələdiyyələr arasında əhalisinin sayı ən çox olan bələdiyyənin adına uyğun müəyyən ediləcək.

**AĞ Partiya sədri Tural Abbaslı ”Şərq”ə bildirib ki, 20 ildən artıqdır Azərbaycanda bələdiyyələr fəaliyyət göstərir. Partiya rəhbərinin sözlərinə görə, Azərbaycanda bələdiyyə deyəndə, insanların əksəriyyətinin ağlına kommunal problemləri həll edən, yol çəkən, zibilləri yığan, küçə təmir edən qurum yox, ”torpaq satan müəssisə” gəlir:** ”Bələdiyyələr Azərbaycanda əvvəlcədən uğursuz fəaliyyətə başladılar. Azərbaycanda bələdiyyə sistemi yaradıldı və sovet dönəminin idarəçiliyi olduğu kimi saxlanıldı. Yəni icra hakimiyyətləri institutu qaldı. İcra hakimiyyətləri faktiki həmin rayonun, yaxud kəndin rəhbərliyini edən, bütün səlahiyyətləri əlində cəmləyən bir orqandır. Nə qədər ki, icra hakimiyyətləri bu səlahiyyətləri, gücü öz əlində saxlayır, bələdiyyələrin inkişaf etməsi, maliyyələşməsi, xalqa xidmət göstərməsi mümkün görünmür. Nəzərə alaq ki, Azərbaycanda bələdiyyə seçkilərinə maraq yoxdur. O baxımdan düşünürəm ki, bələdiyyələrin sayının azaldılmasının səbəbi onların effektli fəaliyyətinə nail olmaq yox, 1600 bələdiyyəyə üzv tapılmamasıdır. 1600 bələdiyyənin hərəsinə 7 üzv lazımdır. Görün, nə qədər kadr tələb olunur. Hakim YAP belə bələdiyyələrə verməyə kadr tapmır”.

**T.Abbaslı vurğulayıb ki, Azərbaycanda icra hakimiyyətləri ləğv olunmalı və onların bütün səlahiyyətləri bələdiyyələrə verilməlidir:** ”Bələdiyyələr o zaman effektiv fəaliyyət göstərə bilər. Ya da bələdiyyə institu ümumiyyətlə ləğv olunub, səlahiyyətlər icra hakimiyyətinə verməlidir ki, insanlar problemlərinin həllini kimdən soruşacaqlarını bilsinlər. Yoxsa camaatın yarısı qalıb bələdiyyənin, digər yarısı da icranın əlində... Bir sənədə görə vətəndaşı oradan-ora göndərirlər. Dövlət vəsaitinin əlavə və paralel strukturlara boş yerə xərclənməsinin qarşısını almaq lazımdır. 20 ildə Azərbaycan cəmiyyəti bələdiyyədən nə fayda götürüb? Məqsədli şəkildə bələdiyyə institutunun tərəqqisinə imkan verilmədi və bələdiyyə ”ölü doğulmuş” quruma çevrildi. Sadəcə, Avropa Şurasının tələblərinə uyğun olsun deyə bələdiyyə strukturlarını təşkil etdik, vəssalam. Bələdiyyələrin sayı azaldılanda nə dəyişəcək? Bələdiyyənin təsir rıçaqları, resursları, maliyyə dayanaqlığı yoxdursa, qərarvermə mexanizmi zəifdirsə, 1600 bələdiyyənin 500-ə salınması nəyi dəyişəcək?”.

**İsmayıl Qocayev**

# İrəvan var gücü ilə KTMT-ni geri itələyir

## Rusiya Ermənistanın antirus addımlarına hələ ki ekspertlərin diliylə cavab verir



**Ermənistanın Baş naziri Nikol Paşinyanın ölkəsinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı fəaliyyətini dondurduğunu söyləməsi Moskva-İrəvan münasibətlərini gərginləşdirib. Ermənistan parlamentinin spikeri Alen Simonyan KTMT-yə sual ünvanladıqlarını, lakin bunun cavabsız qaldığını diqqətə çatdırıb:**

"Biz soruşduq ki, KTMT-nin məsuliyyət zonası haradadır, siz Ermənistan Respublikasının sərhədlərini tanıyırsınızmı, Ermənistan hansı sərhədlər çərçivəsində KTMT-yə qoşulub? Hələlik bunlara cavab yoxdur. Mənim şəxsi fikrim budur ki, KTMT özü-özünü söndürüb və fəaliyyət göstərmir". Kremlin sözçüsü Dmitri Peskov isə bildirib ki, Ermənistanın KTMT-yə üzvlüyünü dondurması ilə bağlı mövqeyi araşdırılacaq: "Ermənistanın KTMT-yə üzvlüyünü dondurması ilə bağlı mövqeyinə hələlik aydınlıq gətirilməyib". Simonyan hesab edir ki, Rusiya sərhədçiləri Zvartnots hava limanında xidmətini dayandırmalıdır. O, rusiyalı sərhədçilərə güvənmədiyini deyib: "Çünki biz ölkəmizin sərhədlərini qoruyacağıq, lakin onların qoruyacağına əmin deyiləm". "Demokratik Platforma" fondunun direktoru Qaregin Miskaryan iddia edib ki, KTMT hərbi məlumatları alandan sonra düşmənlərə (Azərbaycan nəzərdə tutulur - red.) ötürür: "Çünki KTMT bizim müttəfiqimiz deyil. KTMT timsalında Rusiya indiki mərhələdə bizim düşmənimizdir. Bu bizim maraqlarımızın birbaşa toqquşduğu dövlətdir. Bu gün Kremldə oturanlar cinayətkardırsa, biz Rusiya Federasiyası ilə hər cəhətdən əlaqəmizi kəsməliyik. Bizim problemimiz rus xalqı ilə deyil, KTMT ilədir".

Belarus Prezidenti Aleksandr Lukaşenko isə Ermənistanın qurumdan uzaqlaşmasını faciə kimi görməyin əleyhinə olduğunu söyləyib: "Biz buna tamamilə sakit reaksiya veririk. KTMT-də olmaq istəməsələr, o, dağılmayacaq, məhv olmayacaq".

**Politoloq Qabil Hüseynli deyib ki, Rusiya İrəvanın antirus addımlarına ekspertlərin diliylə cavab verir və adekvat addımlara keçməzdən qabaq Ermənistana xəbərdarlıq edir. Analitik qeyd edib ki, İrəvan isə daha da irəli gedir:**

"Paşinyana Qərbdən söz veriblər ki, Rusiyanın təcavüzü ilə üzləşərlərsə, onlar Ermənistanı qoruyacaqlar. Təminat sözü alan Paşinyan və komandası bəzi arqumentlərlə KTMT-nin əleyhinə çıxışlar edirlər. Hətta tələb edirlər ki, KTMT-dəki fəaliyyəti dondurmaq yox, ümumiyyətlə, təşkilatdan çıxmaq lazımdır. İnanmıram ki, tərəflər qarşılıqlı ittihamlardan başqa hansısa ciddi addım atsınlar. Rusiya hazırda Ukrayna ilə müharibə şəraitindədir. Qərb Ukraynanı hərtərəfli dəstəkləyir, Kiyevə yeni silahlar verir. Belə məqamda Rusiyanın Ermənistana ciddi anlamda təzyiq göstərməsi zəif ehtimaldır. Kreml anlayır ki, Ukraynadan sonra daha bir dövlətə savaş açmaq Rusiyanı çökdürər. Paşinyan da bunu bilir və Rusiyadan uzaqlaşmaq istiqamətində addımlar atır".

**İsmayıl Qocayev**

# Azərbaycana sülh lazımdır, amma mütləq deyil

## Ermənistan isə barış olmasa, blokada şəraitində qalmağa davam edəcək

**Dünən parlamentdə Nikol Paşinyan və hökumət deputatlarının qapalı görüşü baş tutub.**

Bu barədə "Joxovurd" qəzeti məlumat yayıb.

Bildirilib ki, görüş 3 saatdan çox davam edib.

Nikol Paşinyan əvvəlcə Münhen danışıqlarının nəticələrini, xüsusən də, Azərbaycan prezidenti ilə görüşü haqda məlumat verib.

Paşinyan komanda yoldaşlarına eyham vurub ki, danışıqlar prosesində ciddi irəliləyiş yoxdur, Münhen görüşü sadəcə növbəti görüşdür və heç bir mühüm razılaşma əldə olunmayıb.

**Paşinyanın fikirlərinə münasibət bildirən politoloq Turan Rzayev "Şərq"ə söyləyib ki, əvvəlcə mənbənin nə qədər düzgün və qərəzsiz olduğuna baxmaq lazımdır:**



"Prinsip etibarilə Münhen görüşü heç də uğursuz keçməyib. Əksinə olaraq kifayət qədər maraqlı məqamlarla yadda qaldı. Əldə edilən nəticələrə baxdıqda sülhə töhfə verəcək razılaşmalar olduğu görünür. Düzdür, ciddi razılıqlar əldə edilməsə belə, əsas odur ki, nəticə var. Həmin nəticəni isə müsbət qiymətləndirə bilərik. Təsadüfi deyil ki, Münhen görüşündən 11 gün sonra, yəni sabah Almaniyanın Berlin şəhərində xarici işlər nazirlərinin görüşü keçiriləcək. Bu görüş isə Münhendə əldə edilən razılaşmalardan biri idi. Faktiki olaraq Münhendə olan razılaşmalar ətrafında real nəticələr var. Belə olan təqdirdə sülhə dair neqativ bir şey demək çətindir. Arzu olunan şəkildə sülh sazişi ilə bağlı addımlar atılmasa da, danışıqlar masasında sülh sənədi mövcuddur".

**Ekspert onu da vurğulayıb ki, İrəvan prosesin uzanmasının onların əleyhinə olacağını yaxşı başa düşür:**

"Prosesin ləngiməsi bölgədə yeni eskalasiya risklərini artırır. Digər tərəfdən, regionda gərginliyin artmasında maraqlı olan qüvvələr də mövcuddur. Ermənistan isə ikinci bir savaşa hazır deyil və potensialı da yoxdur. Belə olduqda da İrəvanın sülhdən yayınması absurddur. Amma sülh müqaviləsinin olmaması Bakını narahat etmir. Çünki sülh Azərbaycana lazım olsa belə, mütləq deyil. Yəni sülh sazişi olmasa da, Azərbaycan gücü ilə regiondadır. Ermənistan isə blokada şəraitində qalmağa davam edəcək".

**Şahanə Ziyad**

# Səfir Türkiyə XİN-ə çağırılmalıdır

## ABŞ rəsmilərinin türk şirkətlərini qapı-qapı gəzməsi tamamilə diplomatik əlaqələrə ziddir



**ABŞ-nin Ankaradakı səfirliyi və İstanbuldakı Baş Konsulluğunun diplomatları türk şirkətlərinə və maliyyə qurumlarına baş çəkir və onları Rusiya ilə ticarət əlaqələri saxladıqları üçün hədələyirlər.**

Bu barədə "Aydınlıq" qəzeti mənbələrə istinadla məlumat verib.

Qəzetə açıqlama verən şirkətlərdən birinin əməkdaşı bildirib ki, ABŞ rəsmiləri onları qapı-qapı gəzərək və ya birbaşa ABŞ səfirliyinə dəvət etməklə hədələyiblər.

Mənbənin sözlərinə görə, bu məmurlardan biri ABŞ-nin İstanbuldakı Baş Konsulluğunun ixraca nəzarət üzrə mütəxəssisi Gülin Kan Yükseltandır.

**Mövzu ilə bağlı "Şərq"ə danışan türk siyasətçi və yazar Aydın Sezer söyləyib ki, Amerika və Avropa Birliyinin Rusiyaya yönəlmiş ayrı-ayrı ticarət qadağaları var:**

"Bəzi məhsulların Rusiyaya satılmasını istəmirlər. Bunların sırasında ən önəmlisi hərbi sanaye, həmçinin mülki şəxslərin də istifadə etdikləri məhsullardır. Eyni zamanda sanaye məhsulları içərisində hərbi texnika istehsalında istifadə edilən məhsulların da Rusiyaya ixracı tamamilə qadağandır. Amerika Birləşmiş Ştatları dekabr ayında sanksiya əmri ilə əlaqədar qərar qəbul edib. Qərara əsasən bu məhsulları Rusiyaya satan şirkətlərin pul köçürməsinə vasitəçilik edən banklar da sanksiyaya məruz qalacaq. Həmin qərar çıxdıqdan sonra bəzi türk bankları Rusiya ilə ticarətdə məhdudiyyətlər tətbiq etməyə başladılar. Çünki Amerikanın sanksiya siyahısına daxil olmaq istəmədilər. Bu gün Çin və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) şirkətləri də Rusiya ilə ticarətə diqqət edirlər. Avropa və Qərbdən Rusiyaya tranzit ticarətdə Türkiyə çox önəmli ölkədir. Yəni Rusiyaya satılması qadağan olan məhsulları Türkiyə xarici ticarət yoluyla Avropa və Amerikadan re-export edərək Moskvaya göndərir. Amerika isə bunu əngəlləməyə çalışır və şirkətləri bir-bir aşkar edə bilmədiyi üçün banklar üzərində təzyiq göstərir".

**Ekspert Amerikanın Türkiyədə uzun zamandır bu cür fəaliyyətlər həyata keçirdiyini vurğulayıb:**

"ABŞ rəsmilərinin şirkətləri qapı-qapı gəzməsi tamamilə diplomatik əlaqələrə ziddir. Bu, Türkiyənin suverenlik haqlarının pozulmasıdır. Əgər xəbər doğrudursa, Türkiyənin Amerika səfirini Türkiyə Xarici İşlər Nazirliyinə çağırması zəruridir. ABŞ-nin Türkiyədə belə fəaliyyət göstərməsi qətiyyən qəbul edilə bilməz".

**Şahanə Ziyad**

# Farsdilli Ölkələr Birliyi yaradılır?

## İranın bu planı Türk Dövlətləri Birliyinə alternativ olaraq irəli sürülüb



**İranın Mədəni İrs, Turizm və Əl İşləri Təşkilatının sədr müavini Əli Darayi Farsdilli Ölkələr Birliyinin yaradılması ideyasını gündəmə gətirib və reallaşdırılması üçün İşçi qrupunun təşkil olunmasını təklif edib. Darayi bu təklifi İran-Tacikistan ortaq mədəni irsi ilə bağlı keçirilən tədbirdə irəli sürüb.**

Tədbirdə Tacikistan nümayəndə heyəti və Düşənbənin Tehrandakı səfirliyinin nümayəndələri iştirak edib. Əli Darayi hər iki ölkənin mədəni və milli irsinin beynəlxalq səviyyədə qeydə alınması ilə bağlı əməkdaşlıq edəcəklərini söyləyib. Qeyd edək ki, İran Tacikistanda siyasi-ideoloji təbliğat apardığına və bu ölkədə radikal dini cərəyanları dəstəklədiyinə görə rəsmi Düşənbə Tehranla münasibətdə ehtiyatlı davranır.

**Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan "Şərq"ə açıqlamasında bildirib ki, İranın bu planı Türk Dövlətləri Birliyinə alternativ olaraq irəli sürülüb. Ekspert vurğulayıb ki, Tehran hökuməti hər zaman iddia edir ki, İran guya milli məsələlərə önəm vermir, ümmətçilik prinsiplərini və İslam dəyərlərini əsas götürür:**

"Lakin belə addımlar sübut edir ki, İranda aparılan şovinist siyasət, türk xalqlarına qarşı basqı həqiqətdir. İran uzun illər gizli apardığı fars şovinist siyasətini artıq üzə vurur, açığa çıxarmağa məcbur olur. Buna baxmayaraq, farsdilli ölkə olaraq Əfqanıstan əsla İranın bu oyununa gəlməz. Tacikistan isə tamamilə İranın radikal dini təmayüllü, məzhəbçi, dünya tərəfindən qəbul edilməyən ideologiyasına alət olmaz. Hazırda farsdilli ölkələr İran, Əfqanıstan və Tacikistandır. Qeyd etdiyim kimi bu ölkələrin köklü, iqtisadi, ideoloji, siyasi, regional fikir ayrılıqları var. Bəzi məsələlərdə də tamamilə bir-birinə əksdirlər. Türk Birliyi və türk dövlətlərindən fərqli olaraq farsdilli ölkələrin birləşməsinin bazası yoxdur. Zəngəzurda hərbi baza açmaq istəyi, indi isə fars birliyi yaratmaq haqda bəyanatlar İranın Türkiyə, Azərbaycan və türk ölkələrin birliyindən narahatlığına görədir. Zəngəzur məsələsinə əngəl yaratmaq, Ermənistana bu qədər qahmar çıxmaq kimi prinsiplər İranın Türkiyə və Azərbaycandan son dərəcə ehtiyat etməsindən qaynaqlanır. Çünki soydaşlarımızın İranda zülm içində çabalaması, tarixən də o coğrafiyalarda türk dövlətlərinin hökm sürməsi tarixin təkrarlanması ehtimalını istisna etmir. İran da bunu gözəl başa düşür. Fəqət Türkiyə, Azərbaycan və Türk Birliyi Dövlətləri səmimidir və özünəinamlı olaraq nə İrana, nə də özlərinə qarşı səmimi olan ölkələr əleyhinə məkrli siyasət aparmır, dağıdıcı maraq güdmür. Sadəcə, İran xofludur, gah qonşusu Pakistan, Əfqanıstan, gah da Azərbaycan və digər ölkələr ilə problem yaşayacaq həddə gərginlik yaradır".

***"Əgər Tacikistan buna qol qoysa belə, ancaq özünə ziyan vuracaq. Çünki bu birlik başqalarına yox, sırf İranın öz maraqlarına xidmət üçün nəzərdə tutulur"***

**Analitikin fikrincə, müsəlman ölkələri ilə anormal münasibətdə olan bir ölkənin indi də belə fikrə düşməsi onu daha da təcrid edəcək:**

"Əgər Tacikistan buna qol qoysa belə, ancaq özünə ziyan vuracaq. Çünki bu birlik başqalarına yox, sırf İranın öz maraqlarına xidmət üçün nəzərdə tutulur. İran nə zaman dini bir ölkələrlə dil tapıb birliyə gəldi ki, indi də dili bir ölkələrin birliyini yaradır?! Bu, absurddur. Türk dövlətləri farsdilli ölkələrdən daha çoxdur və birliyi də daha qədim tarixi kökə dayanır. Ən vacibi də odur ki, bu birlik artıq mövcuddur. İran daxildə yaşayan türk xalqını yox sayaraq fars kimi özünü təsdiq etmək istəyir. Hətta Rusiya belə Türk birliyinə isti yanaşdığı halda İranın bu birlikdən qaçıb fars birliyinə meyl etməsi yenə də özünü həm müsəlmanlardan, həm də türklərdən uzaq tutması deməkdir. İran nə qədər fars kimliyini irəli sürsə də, daxildəki türk xalqları da buna etiraz edəcək və bu, İran üçün daxili problemləri daha da artıracaq".

**İsmayıl Qocayev**

# Düşmənin çirkin məqsədi bəllidir

## Ermənilər məzarlıqları ucdantutma minalayıblar



**Ağdam rayonunun Yusifcanlı və Qarağacı, Cəbrayıl rayonunun Cocuq Mərcanlı və Qaracalılar, Laçın rayonunun Suarası və Füzuli rayonunun Qorqan və Qarakollu kəndlərində yerləşən qəbiristanlıqların minalı olması ilə bağlı dəqiq məlumatlar var.**

Bununla bağlı məlumat "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyi tərəfindən hazırlanan "Azərbaycanda minalar və partlamamış hərbi sursatlar probleminin həllinə yönəlmiş tədqiqata əsaslanan hesabat"da əksini tapıb. Hesabata əsasən, təşkilatın monitorinqləri zamanı müəyyən edilib ki, Yusifcanlı və Suarası məzarlıqlarında baş vermiş mina partlayışları nəticəsində 3 nəfər həlak olub və 4 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Laçın rayonunun Zabux, Sus kəndlərinin yaşayış məntəqələrində həyətyanı evlərdə quraşdırılmış improvizə olunmuş partlayıcı qurğuların işə düşməsi nəticəsində bir nəfər xəsarət alıb. Bundan başqa, hesabatda qeyd olunub ki, Füzuli rayonunun Qarğabazar kəndi ərazisində Şah Abbas karvansarayı, Merdinli kəndində Pirlər türbəsi, Qorqan kəndi ərazisində İbə piri (ziyarətgah), Ağdam rayonunda Cümə məscidi, Tərtər rayonundakı alban kilsələrinin ətrafında müxtəlif sayda partlayıcı sursatlar aşkar edilərək zərərsizləşdirilib.

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan silahlı dəstələrinin hərbi məqsədlərlə keçmiş təmas xəttində müəyyən yerlərə, yollara mina basdırmasını haradasa başa düşmək olar və burada da hədəf əsasən hərbçilər olur. Partiya rəhbəri qeyd edib ki, dinc əhalinin gedə biləcəyi çoxsaylı yerlərə, yaşayış məskənlərinə adətən minalar basdırılmır:**

"Amma ermənilər mülki şəxslərin ayaq basdıqları yerləri, evlərin həyətləri, ziyarət edilən dini məbədlərin ətrafını, o cümlədən məzarlıqları belə ucdantutma minalayıblar. Düşmənin çirkin məqsədi bəllidir. Erməni tərəfi daha çox dinc azərbaycanlının ölümünə səbəb olmaqla yanaşı, həmçinin insanların geri dönüşünə mane olmaq, onları qorxutmaq məqsədi güdür. Ermənistan çox yaxşı bilirdi ki, Azərbaycan gec-tez öz torpaqlarını işğaldan azad edəcək. Məhz qayıdış prosesini mümkün qədər ləngitmək məqsədilə haranı gəldi minalayıblar. İnsanların öz yurdlarına geri dönmək arzu-istəyini gecikdirmək istəyirlər. Bir növ işğaldan azad etdiyimiz ərazilərimizə geri qayıdanları "peşman" etmək, onları tərəddüddə saxlamaq niyyəti güdüblər. Bu da ermənilərin nə qədər qeyri-insanı xaraktere, vəhşi xislətə malik olduqlarını göstərir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;**



# Dövlət-QHT münasibətlərində yeni bir mərhələ başlayıb

## COP29-un təşkilat komitəsində QHT-yə diqqətin artırılması da bu başlanğıcla bağlıdır

**Hər il fevralın 27-də Ümumdünya Qeyri-Hökumət Təşkilatları Günü qeyd olunur. Günün məqsədi cəmiyyətdə insanları, (həmçının dövlət və özəl sektorda çalışanları) QHT-də fəal iştirak etməyə həvəsləndirməkdir. O, həmçinin dünyada insanları QHT və onların cəmiyyətə təsiri haqqında maarifləndirmək məqsədi daşıyır. Ümumdünya QHT Günü 2010-cu il aprelin 17-də Litvanın paytaxtı Vilnüs şəhərində Baltik Dənizi QHT Forumunun 12 ölkəsi tərəfindən rəsmi olaraq təklif edilib və görüşdə qəbul edilmiş bəyannamə ilə elan olunub.**

Baltik Dənizi QHT Forumuna üzv ölkələr Belarus, Danimarka, Estoniya, Finlandiya, Almaniya, İslandiya, Latviya, Litva, Polşa, Rusiya, Norveç və İsveç olub. Almaniya, Avropa İttifaqı, Hindistan, Böyük Britaniya Nümayəndələr Palatası və Lordlar Palatası bu ideyanı dəstəkləyiblər və iclaslarında müzakirə ediblər. Ümumdünya QHT gününün ilk qlobal açılış tədbiri 27 fevral 2014-cü il tarixində Finlandiyanın Helsinki şəhərində Finlandiya Xarici İşlər Nazirliyi tərəfindən keçirilib. Ümumdünya QHT Günü ideyasını əsas etibarilə Avropa İttifaqı və Avropa Şurası kimi Avropa institutları dəstəkləyir. Avropa Şurasında iştirakçılıq statusuna malik "Conference of INGOs" təşkilatı da hər il QHT gününü qeyd edir. Lakin qeyd etmək lazımdır ki, Avropa İnstitutlarından fərqli olaraq, Birləşmiş Millətlər Təşkilatı (BMT) heç bir rəsmi sənədlərində, rəsmi açıqlamalar vasitəsilə və yaxud BMT-nin Beynəlxalq Günlər təqvimində Ümumdünya QHT Gününü rəsmi olaraq tanımayıb. Hesab edilir ki, gələcəkdə Azərbaycanda da, Ümumdünya QHT Gününün keçirilməsi BMT-nin bü hadisəni rəsmi olaraq tanımasından sonra mümkün ola bilər. Qeyd edək ki, Azərbaycan yeni müstəqillik tarixinin ilk günlərindən ölkədə hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşdırılması məqsədini elan edib. Bu proses 1993-cü ildən etibarən daha intensiv xarakter alıb. Ölkədə vətəndaş cəmiyyətinin formalaşması üçün ilk növbədə hüquqi baza yaradılıb. Öz növbəsində dövlət inkişafın əsas ideyası kimi vurğulanan "Güclü dövlətdən güclü vətəndaş cəmiyyətinə" konsepsiyasını irəli sürür. Səmərəli ictimai nəzarətin həyata keçirilməsində vətəndaş cəmiyyəti institutlarının rolu gücləndirilir. Azərbaycanda dövlət və hökumət strukturlarının fəaliyyətinə səmərəli ictimai nəzarətin həyata keçirilməsində vətəndaş cəmiyyəti institutlarının rolunun gücləndirilməsi ön planda yer alır. Azərbaycanda ictimai, vətəndaş nəzarəti institutu müvafiq QHT və vətəndaş cəmiyyətinin digər subyektləri vasitəsilə getdikcə daha çox inkişaf edir. Bu, cəmiyyətlə dövlət arasında səmərəli əks əlaqənin təmin edilməsində, insanların mentalitetinin, ölkədə aparılan islahatlara münasibətinin müəyyən edilməsində ən mühüm elementlərdən biridir. Həmçinin ölkə ərazisində əhalinin müxtəlif təbəqələrinin maraqlarını əks etdirən geniş QHT şəbəkəsinin mövcud olması da əlavə üstünlüklər qazandırır. Hazırda ölkədə minlərlə QHT fəaliyyət göstərir. Ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti və inkişafı üçün hüquqi, informasiya, təşkilati və digər şəraitin təkmilləşdirilməsi bu fonda davam edir. Həyatın bütün sahələrində vətəndaşların özünütəşkilatının dəstəklənməsi, birbaşa demokratiyanın həyata keçirilməsində əhalinin iştirakının forma və üsullarının genişləndirilməsinə dövlət lazımi dəstək verir. Mənəvi dəyərlərin təbliği və sosial həyat mədəniyyətinin inkişafı, sosial sülh, tolerantlıq, sosial məsuliyyət kimi məqamlar da bu fonda diqqət mərkəzindədir. Vətəndaş cəmiyyəti subyektləri arasında qarşılıqlı əlaqə formalarının və mexanizmlərinin inkişafı üçün də müvafiq addımlar atılır. Eyni zamanda vətəndaş cəmiyyətinin inkişafının dəstəklənməsi konsepsiyasının, o cümlədən dövlət orqanlarının konseptual əsasları, prinsipləri və siyasət prioritetləri, vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqənin inkişafının hüquqi əsaslarına da mütəmadi diqqət olunur. Dövlət orqanlarının mühüm qərarlarının hazırlanması, qəbulu, həyata keçirilməsi və nəzarəti proseslərində əhalinin iştirakının mexanizmlərinin və formalarının inkişafı, o cümlədən internet texnologiyalarından istifadə Azərbaycanda geniş vüsət alıb. Vətəndaşların mənəvi-əxlaqi tərbiyəsinin forma və üsullarının təkmilləşdirilməsi, humanitar təcrübələrin, ailə, vətənpərvərlik, mənəvi və digər əxlaqi dəyərlərin təbliği də bu zaman diqqət mərkəzində olan əsas məqamlardır. Vətəndaş cəmiyyətinin müasir inkişafı mərhələsində ictimai nəzarət kimi mühüm instituta xüsusi diqqət yetirilir. Cəmiyyət tərəfindən ictimai nəzarət olmadığı halda dövlət orqanları öz vəzifələrini heç də həmişə vicdanla və səmərəli şəkildə yerinə yetirmirlər. Məhz buna görə də vətəndaş institutlarının inkişafında aktual vəzifə dövlət hakimiyyəti və idarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsinin səmərəli mexanizmlərinin yaradılması olaraq qalır. Həmçinin diqqətəlayiq haldır ki, hazırda ölkədə hüquq-mühafizə orqanlarının fəaliyyətinə və işinin keyfiyyətinə vətəndaş cəmiyyəti institutları tərəfindən müvafiq monitorinqin və ictimai nəzarətin həyata keçirilməsinə yönəlmiş sistem yaradılır. Azərbaycanda həyatın özü həm yerli, həm regional, həm də dövlət səviyyəsində mövcud problemlərin daimi monitorinqi üçün getdikcə daha çox yeni tələblər qoyur. Bununla əlaqədar vətəndaş cəmiyyəti institutlarının rolu ölçüyəgəlməz dərəcədə artır.

**"İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri, QHT.az saytının rəhbəri Cəsarət Hüseynzadə "Şərq"ə deyib ki, beynəlxalq hüquq sisteminə "qeyri-hökumət təşkilatları" termini 1945-ci ildə yaradılan BMT nizamnaməsinin 71-ci maddəsi ilə gəlib. Ekspertin sözlərinə görə, Beynəlxalq QHT Günü 2010-cu il aprelin 17-də Baltik dənizi ölkələrinin QHT-sinin IX Forumunda Baltik dənizi regionu ölkələrinin idarə heyəti tərəfindən rəsmi olaraq tanınıb. 27 fevral 2014-cü il tarixində Finlandiya Xarici İşlər Nazirliyi tərəfindən Helsinkidə (Finlandiya) Beynəlxalq QHT Gününün qlobal bayramı keçirilib:**

"QHT Gününün ümumi tanınması 2014-cü ildən bəri əhəmiyyətli dərəcədə artıb. Dünyanın müxtəlif yerlərində müxtəlif cəmiyyətlər, beynəlxalq liderlər, şəhər merləri, korporasiyalar və bir çox təşkilatlar tərəfindən qeyd olunur. Ötən dövrlər ərzində QHT-nin fəaliyyəti çərçivəsi də xeyli dəyişib. QHT-nin fəaliyyəti əsasən narahatçılıq və ehtiyac duyulan sahələr ilə bağlı olur və davamlı olaraq zamana və ölkələrə görə dəyişə bilir. Hesab edirəm ki, QHT olaraq bizim öz fəaliyyətimizdən razı olmağımız düzgün çıxmaz. Biz hər zaman əhatə dairəmizin genişlənməsi, resursların artırılması kimi məsələlər üzərində işləməliyik. Xüsusən hesab edirəm ki, icma fəaliyyətinin genişləndirilməsinə çalışmalıyıq. Bu gün bu sahədə də heç şübhəsiz uğurlar var. Ümumilikdə QHT-nin fəaliyyəti üçün hüquqi təminat və real şərait mövcuddur. Hər bir sahədə çalışan vətəndaşlar sözsüz ki, həmin sahələr ilə bağlı daha çox imkanların və imtiyazların olmasını istəyirlər. Bu baxımdan hər bir QHT nümayəndəsinin də eyni arzunu QHT sektoru ilə bağlı da qeyd etməsi başadüşülən olmalıdır".

**C.Hüseynzadə qeyd edib ki, ümumilikdə isə Azərbaycan vətəndaş cəmiyyəti sektoru sahəsində dövlətin mühüm iradəsi var:**

"Bu iradə cənab Prezidentin çıxışlarında dəfələrlə ifadə olunub. Bu iradənin nəticəsi olaraq Azərbaycan dövlətinin QHT-yə dəstəyi və inkişafı ilə bağlı vacib mexanizmlər mövcuddur. Xüsusən maliyyə dəstəyini qeyd etmək lazımdır. QHT Agentliyi, Gənclər Fondu kimi davamlı olaraq qrant müsabiqəsi elan edən dövlət qurumları var. Bu qrant müsabiqələri hazırda yerli QHT-nin geniş fəaliyyəti üçün əsas donorlar hesab edilir. Eyni zamanda müxtəlif dövlət qurumlarının digər qrant müsabiqələri də keçirilir. Sön dövrlər, xüsusən 2022-ci ilin dekabrından başlayaraq QHT-nin Şuşa-Xankəndi yolunda ekoaksiya təşkil etməsi Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının potensialını bir daha nümayiş etdirdi. Daha sonra Ermənistanın dağ-mədən sənayesinin ətraf mühitə zərəri ilə bağlı QHT-nin fəaliyyəti və həmin QHT-nin ətrafında 20-dən artıq ölkənin 50-yə yaxın QHT-sinin birləşməsi QHT-mizin şəbəkələşmə və beynəlxalq müstəvidə gücünü nümayiş etdirdi".

*QHT rəhbəri vurğulayıb ki, Prezident İlham Əliyev tərəfindən bu məsələnin diqqətdə saxlanması və dövlət qurumlarının bu istiqamətdə fəaliyyət göstərməsi ilə bağlı tapşırıq verməsi xüsusən xoş bir nümunə oldu:* "Bu hadisəni dövlət-QHT münasibətlərində yeni bir mərhələnin başlanğıcı hesab etmək olar. Hesab edirəm ki, COP29-un təşkilat komitəsində QHT-yə diqqətin artırılması bu başlanğıcla bağlıdır. Hazırda QHT-nin fəaliyyəti üçün cəmiyyətin müxtəlif sahələrində prioritetlər mövcuddur. Hesab edirəm ki, QHT-nin koalisiyalaşması problem olaraq qalır. Eyni zamanda ixtisaslaşma, institutlaşma, davamlı fəaliyyət, monitorinq, ictimai nəzarət, peşəkar kadrların yetişməsi kimi problemlərin həll edilməsi də qarşımızda duran əsas hədəflərdən olmalıdır. Bu istiqamətdə dövlət qurumları və beynəlxalq təşkilatların birgə dəstəyi vacibdir".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Köhnə hamam, köhnə tas...

## Nömrəsiz motosikletlər yenə "at oynadır"

**Ölkəmizdə qanunlar 18 yaşından aşağı şəxslərə avtomobil idarə etməyə icazə vermir. Buna baxmayaraq, bu gün yollarda 15-16 yaşlı uşaqların da maşın sürdüyünü görmək olur. Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, sürücülük hüququ olmayan, eləcə də, yetkinlik yaşına çatmayan uşaqların sükan arxasında əyləşməsinə hələ də bəzi valideynlər tərəfindən icazə verilir. Belə hallara qətiyyən yol vermək olmaz. Bu əməllər qanunla qadağan olunur, məsuliyyət yaradır və eyni zamanda bütün hərəkət iştirakçıları üçün ciddi təhlükə yaradır.**

Baş Dövlət Yol Polisi İdarəsi valideynlərə çağırış edib. Qurumdan bildirilib ki, sürücülük hüququ olmayan, eləcə də, yetkinlik yaşına çatmayan uşaqların sükan arxasında əyləşməsi ilə bağlı faktlara hələ də rast gəlinir: "Zaman-zaman bəzi orta ümumtəhsil məktəblərində oxuyan yuxarı sinif şagirdlərinin məktəblərə avtomobillə gəlməsinə dair məlumatlar da eşidilir. Təhlükəsizliyin təmin olunması üçün yol polisi əməkdaşları tərəfindən təhsil müəssisələrində həm valideynlərlə, həm də məktəblilərlə tez-tez maarifləndirici tədbirlər keçirilsə də, yenə də azyaşlı uşaqlarına sükan arxasına keçməyə icazə verən valideynlərə rast gəlinir. Bəzi valideynlər özləri övladlarına avtomobil idarə etməyi öyrətdiklərini, onların hər şeyə hazır olduqlarını zənn edir, amma yol hərəkəti qaydalarını bilməyən uşaqlarının ekstremal durumlarda aciz qalacaqlarını, məsələnin nə qədər ciddi olduğunu unudurlar. Bir uşağın avtomobil sürmək həvəsi həm özünün, həm də valideynlərinin arzularını yarıda qoya bilər. Belə hallara qətiyyən yol vermək olmaz. Bu əməllər qanunla qadağan olunur, məsuliyyət yaradır və eyni zamanda bütün hərəkət iştirakçıları üçün ciddi təhlükə deməkdir. Bir daha valideynləri övladlarını nəzarətsiz qoymamağa çağırırıq".



**"Sürücülük vəsiqəsi olmayanlar kimliyindən asılı olmayaraq məsuliyyətə cəlb olunmalıdır"**

Qeyd edək ki, yetkinlik yaşına çatmayan uşaqlarla bağlı yollarda yaşanan tək problem onların sürücülük vəsiqəsi olmadan avtomobil idarə etməsi deyil. Yaşı 18-dən az olan uşaqlar motosiklet idarə edərək yollarda qəza vəziyyəti yaradır. Bununla da, digər hərəkət iştirakçılarını, bəzən də özlərini təhlükəyə atmış olurlar.

**Mövcud problemin ölkəmizdə dərinləşdiyini vurğulayan Sosial-strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli deyib ki, bu hal rayon və kəndlərdə daha geniş vüsət alıb:**

"Şəxsi müşahidələrim əsasında deyə bilərəm ki, yerlərdə hamının bir-biri ilə qohumluq, tanışlıq əlaqələri var, ünsiyyət imkanları Bakı ilə müqayisədə daha yaxşı olduğuna görə, yetkinlik yaşına çatmayan uşaqların avtomobil idarə etməsinə göz yumulur. Lakin müvafiq qanunvericiliyin tələblərinə görə, sürücülük hüququ olmadan sükan arxasına oturan şəxslər kimliyindən və kimin övladı olmasından asılı olmayaraq məsuliyyətə cəlb olunmalıdır.

Qanuna görə, sürücülük vəsiqəsi olmadan avtomobil idarə edən şəxs DYP əməkdaşları tərəfindən saxlanılırsa, onun idarə etdiyi nəqliyyat vasitəsi Dövlət Yol Polisi üçün nəzərdə tutulan dayanacaqlara aparılır və həmin nəqliyyatın sahibinə qarşı cərimə tətbiq olunur. Yetkinlik yaşına çatmayan şəxslər avtomobillə qəza törədib kiməsə xəsarət yetiribsə və ya ölüm halı qeydə alınıbsa, bu zaman həm nəqliyyatı idarə edən azyaşlı, həm də avtomobili ona verən şəxslər *(valideyn və ya yaxın qohumları ola bilər)* cinayət məsuliyyətinə cəlb olunur.

Azyaşlı nəqliyyat vasitəsini avtomobil sahibinin xəbəri olmadan qaçıraraq idarə edibsə, bu zaman həmin uşaq İnzibati Xətalar Məcəlləsinin və ya Cinayət Məcəlləsinin avtoxuliqanlıq, maşın qaçırma və qəza törətmə maddələri ilə cəzalandırılmalıdır. Bu maddələr də "Yol Hərəkəti Qaydaları" və Cinayət və İnzibati Xətalar Məcəlləsində öz əksini tapıb".

**Motosiklet istifadəçilərinə gəldikdə isə İ.Hüseynli deyib ki, onlar qaydaları pozduqları halda məsuliyyətdən yayınmaq üçün müxtəlif üsullara əl atırlar. Məsuliyyətdən yayınmaq üçün motosikletlərin dövlət nömrə nişanını çıxarırlar:**

"Əksəriyyətinin sürücülük vəsiqəsi yoxdur. Halbuki sürücülük vəsiqəsi olmadığına görə 100 manat, dövlət nömrə nişanı olmadığına görə isə 60 manat cərimə müəyyən edilib: "Məlumdur ki, ölkəmizdə motosiklet idarə edənlər də avtomobil yollarından istifadə edirlər. Bu da mütəmadi olaraq yol-nəqliyyat hadisələrinin yaşanmasına səbəb olur. Xüsusilə, son illər motosikletlə kuryerlik edən gənclərin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin sayında artım müşahidə edildiyindən həmin nəqliyyat vasitələrinə də dövlət nömrə nişanlarının olması ilə bağlı tələb qoyuldu. Tanınma nişanları olmadığı üçün kameralardan asanlıqla yayındıqları üçün motosikletlə qəzalara səbəb olan şəxsləri məsuliyyətə cəlb etmək çətin olurdu. Qeyd edək ki, "Yol hərəkəti haqqında" qanunun 27-ci maddəsinə edilmiş əlavə və dəyişiklik 2023-cü il avqustun 1-dən etibarən qüvvəyə minib. Dəyişikliyə əsasən, mühərrikinin işçi həcmi 50 kub/sm və daha çox, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün tipli, markalı və modelli mexaniki nəqliyyat vasitələrinin qeydiyyatdan keçməməsi inzibati məsuliyyət yaradır.

Eyni zamanda konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan mexaniki nəqliyyat vasitələrini idarə edən şəxslərdən "A1" altkateqoriyalı sürücülük vəsiqəsi tələb olunur. Yeni qanundan sonra moped sürücülərinin bir qismində məsuliyyət yaransa da, bir qisim moped istifadəçiləri hələ də yolun sağ zolağı ilə hərəkət etmək əvəzinə, sol və ya orta zolaqda hərəkət etməklə qəza vəziyyəti yaradırlar. Həmin nəqliyyat vasitələrini idarə edənlərin əksəriyyəti də 15-16 yaşlı vətəndaşlardır".

**Şəymən**

# Boşanmaların artması təhlükəli hal alır

## Sosial şəbəkələr də "maarifləndirmə" işini gördü



**"Son 10 ildə Azərbaycanda nikah və boşanma sahəsində vəziyyət necədir?**

**Qısa cavab belədir ki, tendensiya yaxşı deyil. Nikah azalır, boşanma çoxalır". Bu barədə iqtisadçı-ekspert Samir Əliyev sosial media hesabında paylaşım edib. Boşanmaların artmasının təhlükəli tendensiya halı aldığını vurğulayan ekspert deyib ki, orta nikah yaşı getdikcə artır: "10 il qabaq hər 7 nikaha bir boşanma düşürdüsə, hazırda bu göstərici 4 nikah səviyyəsinə qədər azalıb".**

S.Əliyevin toxunduğu mövzu digər ictimaiyyət üzvlərinin də diqqətini çəkib və mövzu geniş müzakirə predmetinə çevrilib.

Şəhərlərdə göstəricinin daha pis olduğunu vurğulayan jurnalist Vasif Cəfərov bildirib ki, bir neçə il əvvələ qədər Azərbaycanda ildə 4-5 min boşanma faktı qeydə alınırdı. İndi yalnız Bakıda bir ildə 7 mindən çox boşanma olub. Bakıda Səbail rayonu öndə gedir. Bu rayonda 100 nikaha 65 boşanma düşür.

**Xarici ölkədə yaşayan Elnur Əhədov adlı istifadəçi isə beynəlxalq təcrübəyə toxunub:**

"Nikaha girmək prossesi çətinləşməlidir. Ailə qurumları yaradılmalı, insanların ailə qurmağa psixoloji hazırlıqları yoxlanılmalıdır. Nikaha girmə rahat olduğu üçün valideynlər, ailələr nikahda müəyyən sosial problemlərin həllini görürlər. Avropa ölkələrində isə boşanmaların sayının çox olmamasının səbəbi rəsmi nikahların az olduğu ilə əlaqədardır məncə. Almaniyada qanunlar çox sərt olduğu üçün maddi yük yüksək olduğu üçün əksər cütlüklər uzun müddət birgə yaşayandan sonra qərar verirlər ki, münasibətləri rəsmiləşdirsinlər, ya yox. Hələ əmlakı və biznesi olanlar bu qərarı verməkdə daha çox götür-qoy edir".

**Filologiya elmləri doktoru Yadigar Cəfərli isə beynəlxalq təcrübədə boşanma və nikah nisbətinin 50/50 olduğunu deyib:**

"Yəni ailə quranların tən yarısı boşanır. Riçard Talerlə Kəs Sansteynin "Nudge" kitabında da belə göstərilir. Sadəcə, indiyə kimi bizdə ailə institutu ənənələr üzərində möhkəm olub deyə, nisbət bu səviyyəyə çatmayıb. Amma qloballaşmanın, nəsil dəyişikliyinin təsiri ilə sürətlə ona doğru gedir".

**S. Əliyev:**

- Avropada boşanma faizi yüksəkdir. Dostumuz Xalid bəy də statistika paylaşıb. Bu rəqəmləri görmüşdüm əvvəllər. Düzü, ilk baxışda təəccüblü gəlsə də, bir qədər analiz etdikdən sonra Azərbaycanla fərqli situasiyanın olduğunu gördüm. Fərqlər çoxdur. Məsələn, əsas səbəbdən biri avropalı qadının boşandıqdan sonra çətinlik çəkmədən 2-ci və 3-cü dəfə ərə getmək şanslarının olmasıdır. Bizdə boşanmış qadının bir tərəfdən 2-ci dəfə ərə getməsi imkanları məhduddur, digər tərəfdən, ərsiz yaşaması belə psixoloji basqılarla üz-üzə qalmaqdır. İkinci vacib məsələ ölkədə sosial təminat səviyyəsinin aşağı olmasıdır. Yəni qadınların işlə təminatında problem olması, təhsilsizliyin yüksək olması onların tənha yaşamasına çətinlik yaradır. Yəni belə misalları çox çəkmək olar. Avropada boşanma yüksək olsa da, insanlar illərlə birgə yaşayırlar. Yəni nikah orada texniki məsələdir.

**Hüquqşünas Xalid Ağəliyev isə xarici ölkələrin statistikası ilə bağlı daha detallı rəqəmlər qeyd edib:**

"Hər 100 nikaha Portuqaliyada 64, İspaniyada 57, Belçikada 52, Hollandiyada 50, Danimarkada 48, İtaliyada 47 faiz boşanma düşür. Türkiyə və Rumıniyada 100 nikaha 22 və 21 faiz boşanma düşür. Onillik rəqəmlərə baxanda ölkələrə görə fərqli tendensiyalar var, İsveçrədə, Belçikada 15-20 faiz azalma var. Türkiyədə isə boşanma faizlərində ardıcıl yüksəliş nəzərə çarpır.

**Elnur Teymuroğlu:**

Ailə dəyərlərini hədəf alan bir çox işlər görüldü və bu proses bu gün də davam edir. Hansı işlər görüldüyünü siz də yaxşı bilirsiniz. Adət-ənənələrimizi sıradan çıxartmaq üçün gender bərabərliyi adı altında xeyli işlər görüldü. Sosial şəbəkələrdə bununla bağlı "maarifləndirmə" işi görüldü. "Kişi xəyanət edirsə, qadın da edə bilər" kimi paralellər aparıldı. Ona xəyanət edən qadını bağışlayan ərlər efirlərə çıxdı.

**Yadigar Cəfərli isə sözügedən rəyə "Bu da bir başqa mövzudur, təbii.**

"Nudge" də onu öyrədir ki, nə vitrində və daha əlçatandırsa, ona maraq daha böyük olur",- deyə münasibət bildirib.

**Şəymən**

# Türk xalqları ilə bağlı yeni kitab işıq üzü görüb

## Araşdırmada oxucular türk xalqlarının yaşadıqları geniş coğrafiyaya "səyahət" edirlər




**Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Türk xalqları ilə bağlı yeni kitab işıq üzü görüb. Kitabı Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Yeganə İsmayılova nəşrə hazırlayıb.**

Nəşrin redaktoru Azərbaycan Dillər Universitetinin Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri, filologiya elmləri doktoru Elçin İbrahimovdur. Kitabda dünyanın müxtəlif yerlərində yaşayan türk xalqları ilə bağlı qısa xülasələr yer alıb. Araşdırmada oxucular türk xalqlarının yaşadıqları geniş coğrafiyaya "səyahət" edirlər. Nəşrdə vurğulanıb ki, türklər dünyanın müxtəlif yerlərində yaşayıb və böyük izlər qoyublar. Türk xalqları dünyanın ən qədim və köklü xalqlarından biridir, böyük tarixi və mədəni irsə malikdir. Başqa xalqlar müəyyən ərazidə yaşadıqları halda, türklər dünyanın müxtəlif yerlərində yaşayıblar və hazırda da yaşamaqdadırlar. Həmçinin türklər böyük-kiçik bir çox dövlətlər qurublar. Nəşrdə dünyada təxminən 300 milyondan çox türkün yaşadığı vurğulanır. Bildirilir ki, qloballaşma və digər dünya xalqları ilə inteqrasiyanın genişlənməsi türklərin öz tarixi yerlərindən daha geniş ərazilərə yayılmasına səbəb olub. Bu gün türkdilli xalqlar müxtəlif qitələrdə yaşayırlar. Qeyd olunub ki, türklər Orta Asiya, Qafqaz, Aralıq dənizi, cənubi və şərqi Avropa, şərqi Rusiya və bir çox başqa yerlərdə yaşayıblar. Hətta türk dilində danışan etnoslar Amerikada, Şimali Avropada, Çində də yaşayıb. Bildirilib ki, türklərin ən çox yaşadığı ölkə Rusiya və Türkiyədir. Kitabda türk xalqlarının hər biri haqqında ayrıca məlumatlar da verilib.

**İsmayıl**

# Yeməkdən dərhal sonra çay, su içmək olmaz

## Həkim qəbuluna gələn şəxslərin 90 faizi köpdən əziyyət çəkir

**Qanda hemoqlobin adlanan zülalın normadan aşağı düşməsi və ya qırmızı qan hüceyrələrinin sayının azalması "anemiya" adlanan vəziyyətlə nəticələnir.**



Anemiya bir çox xəstəliyə yol açır, halsızlıq, yorğunluq kimi arzuolunmaz nəticələrə səbəb olur. Prof. Dr. Canan Karatay anemiya ilə bağlı xəbərdarlıqlar edib.

O, xüsusilə son zamanlar bir çox insanın yorğunluq, halsızlıq kimi şikayətlərlə üzləşdiyini və bunun əsas səbəbinin qan azlığı ilə bağlı olduğunu bildirib.

Qadınların xüsusilə təhdid altında olduğunu deyən Canan Karatay menstruasiya, əmizdirmə kimi dövrlərdə daha diqqətli olmağı tövsiyə edib.

Onun sözlərinə görə, qidalanma anemiyanı tətikləyən ən vacib məsələlərdəndir: "Həzm probleminin bir növü olan "qlütenə qarşı dözümsüzlük" anemiyanın əsas səbəblərindən biridir. Qlüten dözümsüzlüyü olanlar sağlam qidalansalar belə, qidaların tərkibindəki dəmirdən tam faydalana bilmədikləri üçün daim anemiya və dəmir çatışmazlığı problemi ilə üzləşirlər".

Anemiyanın ən böyük əlamətinin yorğunluq və daimi yatmaq istəyi olduğunu ifadə edən Karatay, bunun immunitet sistemini zəiflətdiyini və müxtəlif xəstəliklərə qarşı həssas hala gətirdiyini söyləyib. Onun sözlərinə görə, qan azlığının ən mühüm səbəblərindən biri yeməkdən sonra çay içmək vərdişidir. Karatay çayın qidalardakı dəmirin sorulmasına mane olduğunu vurğulayıb.

Azərbaycan xalqının ən sevimli vərdişlərindən biri yeməkdən dərhal sonra çay içməkdir. Hətta yemək arasında su qəbul edən insanlar da var. Bəs görəsən, yeməkdən nə qədər sonra maye qəbul etmək daha doğrudur?

**Həzm sistemində düzgün qidalanmanın böyük rolu olduğunu deyən tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı "Şərq"ə açıqlamasında qeyd edib ki, düzgün qidalanmanın tərkibinə məhsulun nə zaman qəbul edilməsi aiddir:**

"İnsan orqanizmində zülallar, yağlar, karbohidratlar, mikroelementlər daxil olur. Bu qidaların hər birinin mədədə qalma və həzm müddəti müxtəlifdir. Məsələn, ən gec həzm olunan zülallardır. Yəni zülal dedikdə ət yeməkləri, yumurta nəzərdə tutulur. Bunlar mədədə 35-40 dəqiqə qalır. Mədədə yalnız həzm deyil, sorulma prosesi də gedir. Kabohidratlar mədədə gec həzm olunanlar sırasındadır. Un və un məmulatları, düyü kimi qidalar zülallardan daha tez, 25-30 dəqiqə müddətində həzm olunur. Meyvə-tərəvəzlər də daha tez həzm olunan qidalardır. Buna təxminən 15 dəqiqəyədək vaxt sərf olunur. Qidaların hər birindən istifadə etdikdən sonra bir müddət gözləməliyik ki, mədədən sorulsun. Məhz bundan sonra maye qəbul edilməsi daha məqsədəuyğundur. Tərkibindən asılı olmayaraq, yeməkdən dərhal sonra və yaxud yemək əsnasında çay, su qəbul etmək məsləhət görülmür. Qəbula gələn şəxslərdən 90 faizi köpdən əziyyət çəkir. Bu, bəzi xəstəliklərin yaranmasına səbəb olur. Məsələn, mədədə acılıq, turşuluq, qida borusundan mədəyə düşən yerlərdə refleks sindromu, mədənin selikli qişasında qıcıqlanmalar, yaradır. Soyuq qidaların ardından isti və yaxud isti yeməklərdən sonra soyuq mayelər qəbul etmək doğru deyil".

**Nəzrin Vüqarqızı**

# Gənc telekom mütəxəssisləri "Nar" şəbəkəsində təcrübə keçir




**"Nar" Azərbaycanın mobil rabitə sahəsinin peşəkarlar kadrlarının yetişdirilməsi məqsədilə, İT və rabitə ixtisasları üzrə təhsil alan tələbələr üçün təcrübə proqramına başladı. Seçilən 10 tələbə Şəbəkə texnologiyaları departamentində təcrübə keçəcək.**

May ayının sonunadək davam edəcək proqram çərçivəsində tələbələr "Nar"ın peşəkar texniki heyətilə birgə çalışacaq və gələcək karyeraları üçün əvəzsiz təcrübi biliklər qazanacaq. Təcrübə proqramı "Nar"ın KSM strategiyasının təhsilə dəstək istiqaməti üzrə və Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq çərçivəsində keçirilir.

Bu əməkdaşlıq çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası fəaliyyət göstərir, "Nar"ın texniki heyəti mobil rabitənin əsasları barədə təlimlər keçir və AzTU tələbələri təcrübə proqramlarına cəlb edilir.

### Elanlar

Vətəndaş Rəhimov Vitaliy Macidoviçə Zabrat bələdiyyəsi tərəfindən verilmiş, Zabrat qəsəbəsi, Kərpic zavodun cənub-qərb hissəsində yerləşən, fərdi yaşayış evinin tikintisi üçün nəzərdə tutulan 600 kv metr torpaq sahəsinin verilməsinə dair 25 oktyabr tarixli, 131 saylı qərara dair sənədlər itdiyi üçün etibarsız sayılır.

---

Abşeron rayonu, Saray qəsəbəsi, "Şərur" Mənzil Tikinti Kooperativi (MTK) tərəfindən Yaqubov Abbas İslam oğluna verilmiş 7-ci giriş, 4-cü mərtəbə, 22 saylı mənzilin Müqaviləsi itdiyi üçün etibarsız sayılır.

---

Bakı Dövlət Nəqliyyat və Rabitə kollecinin Nəqliyyatın texniki istismarı fakültəsinin (813B) 1-ci kurs tələbəsi Ağayev Vüsal Vilayət oğluna məxsus Tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Hərbi Hava Qüvvələrinin zabiti Səmədov Səfa Zöhrab oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Nihat Kərimli, Şəhanə Ziyad

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 491



## Sərsəm güllə qurbanları

Gəlinlə bəyin "atəş" şousu ölümlə nəticələndi

**Türkiyənin Amasya bölgəsində toy mərasimi faciəyə səbəb olub. Türkiyənin bəzi bölgələrində hələ də tez-tez rast gəlinən "toy şousu" - odlu silahdan atəş açmaq Amasyada da dəbdir.**

Və təəssüf ki, belə yersiz və təhlükəli şoular insanların həyatına son qoyur. Belə faciəli hadisələrdən biri Amasyanın Kuzgecə kəndində baş verib. "Şərq" "Milliyet.com.tr"yə istinadən xəbər verir ki, kənddə keçirilən toy mərasimində gəlinlə bəy də silahlı şəxslərə qoşulub odlu silahdan atəş açmağa başlayıblar. Onların əllərində silah, ətrafa rastgələ atəş açdıqları kameralar tərəfindən qeydə alınıb. Gəlinlə bəyin açdığı atəş nəticəsində təqaüddə olan zabit, 53 yaşlı Mehmet Celik ağır yaralanıb. Onu xəstəxanaya çatdırıblar, lakin həkimlərin səyinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. Mehmet Çeliyin həyat yoldaşı Melahat Çelik, şübhəli şəxs qismində saxlanılan Sidqi Ç-nin 2 ay həbsxanada qaldıqdan sonra məhkəmənin növbəti iclasınadək ev dustaqlığına buraxıldığını deyib. M.Çelik kamera görüntülərinin əsaslı dəlillər olduğunu, lakin bundan kimsənin səsini çıxarmadığını söyləyib: "Sanki döyüş səhnəsi idi. Silahlar susmurdu. Gəlin də, bəy də, hər kəs silahlardan atəş açırdı. Kəndin muxtarı da orada idi, amma "nə edirsiz, dayanın", demədi. Həyat yoldaşımın ölümünə səbəb olan hər kəsdən şikayətçiyəm. Ədalətin ən qısa zamanda bərqərar olmasını istəyirəm".

Məlahət

## Görən heyrətlənir

Yaşı 4 min il, hündürlüyü 20 metrdir



**Adananın Aladağ rayonunda mühafizə altında olan 4 min illik meşə sarmaşığı görənləri valeh edir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, 7-ci Təbiəti Mühafizə və Milli Parklar Regional Müdirliyi tərəfindən monumental ağac kimi qeydə alınan min illik sarmaşıq çoxəsrlik kökləri və yaşıl yarpaqları ilə heyrətləndirir. Təbiəti Mühafizə və Milli Parklar tərəfindən monumental ağac kimi qeydə alınan və qorunan nəhəng sarmaşıq Meydan Yaylasının Boğbığı yerində 20 metr uzunluğunda, 23 metr tac enində və 2,3 metr diametrində böyüməyə davam edir. Rayona gələn qonaqların diqqətini çəkən nəhəng sarmaşıq həm də rayondakı təbii rəngarəngliyə öz töhfəsini verir. Su ilə təbiətin qovuşduğu ərazilər vizual şənlik yaradır. Hər kəsin illərə meydan oxuyan nəhəng sarmaşığı görməyə gəldiyini ifadə edən Sinan Koyuncu, "4 min illik ağacdır. Hər kəs bu ağacı görmək üçün rayonumuza gəlir. Bu, təbiətin möcüzəsidir", - deyir.

Turan

## Belə bir vicdansızlıq olmaz!

Yeni doğulan körpəni məscidin həyətində qoyublar



**Türkiyənin Şırnak bölgəsində məscidin həyətində qalan yeni doğulmuş qız uşağı özəl xəstəxanaya göndərilib. Soyuq havada olduğu üçün körpənin həyati təhlükəsinin davam etdiyi bildirilib.**

"Şərq" xəbər verir ki, fevralın 25-də Silopi rayonunun Yenişehir rayonundakı Əhməd-i Hani məscidinin həyətində çanta içində körpə olduğunu görənlər 112 Təcili Zəng Mərkəzinə xəbər veriblər. Bölgəyə qruplar göndərilib. Yeni doğulan qızcığaz təcili yardım maşını ilə xəstəxanaya aparılıb. Soyuqdan təsirlənən və reanimasiyaya götürülən körpə Batmandakı özəl xəstəxanaya köçürülüb. Körpənin səhhətinin ağır olduğu bildirilir. Polis hadisə ilə bağlı araşdırmalara başlayıb.

Turan

## Baş nazir paylaşdı, ölkə qarışdı!




**Danimarkanın Baş naziri Mette Frederiksenin sosial media hesabında yemək paylaşımı ölkədə müzakirə mövzusuna çevrilib. "Şərq" xəbər verir ki, Baş nazir Frederiksen müzakirələrdən sonra açıqlama verməli olub.**

Frederiksenin paylaşımında çiy toyuq doğramaq üçün istifadə etdiyi kəsmə taxtasında soğan doğraması danimarkalıların qarşıq reaksiyalarına səbəb olub. Yazının altında bir istifadəçi "Olmaz! Toyuq və tərəvəz üçün eyni kəsmə taxtasını istifadə edə bilməzsiniz" yazıb. Müzakirələrdən sonra Baş nazir Frederiksen instaqram profilində açıqlama verməli olub. "... Və təbii ki, soğan və toyuq kifayət qədər qızdırılmalıdır. Həmçinin həm taxta, həm də bıçaq sonra yuyulur", - Frederiksen açıqlamasında bildirib.

## Ebru Gündəş iş adamı ilə ailə qurdu

Cütlük Türkiyə səfirliyində sadə mərasimlə toy edib



**Türkiyəli müğənni Ebru Gündəş dördüncü dəfə ailə həyatı qurub.**

Axşam.az-ın "Hürriyet"ə istinadən məlumatına görə, ifaçı dünən iş adamı Murad Özdəmirlə nikah masasına əyləşib. İddia olunub ki, cütlük Dubaydakı Türkiyə səfirliyində sadə mərasimlə toy edib.

*Qeyd edək ki, iki dəfə evli olan Muradın 3 övladı var. E.Gündəş isə 3 dəfə ailə qurub və boşanıb. Onun Alara adlı bir qızı var.*



# 40 ölkə, 200 şəhər gəzdi

İqtisadçı xanım həyatının sevgisini Türkiyədə tapıb

**5 il əvvəl dünya səyahətinə çıxıb 40 ölkə, 200 şəhər gəzən iqtisadçı xanım həyatının sevgisini Türkiyədə tapıb. "Şərq" "Milliyet.com.tr"yə istinadən Cənubi koreyalı gəncin həyat hekayəsini təqdim edir. Hivan Ko adlı koreyalı gənc xanım ixtisasca iqtisadçıdır.**

Amma dünya səyahətinə çıxmaq, müxtəlif ölkələr gəzib şəhərlər görmək ən böyük arzusu olub. Bu arzuyla da 5 il əvvəl dünya turuna çıxıb. 2021-ci ildə Türkiyəyə gəlib və Muğlanın Fəthiyyə bölgəsindəki mehmanxanada qonaq qalıb. Mehmanxanada Toğrul Kaya adlı gənclə tanış olub. Onların münasibəti getdikcə sevgiyə çevrilib. 2 il sonra isə onlar evləniblər. Və Toğrul Kayanın məmləkəti Kayseriyə yerləşiblər. Hivan Ko türk dilini öyrənmək üçün Kayseri Böyük şəhər bələdiyyəsinin Peşə Təhsili və Mədəniyyət Mərkəzində türk dili təhsili almağa başlayıb. Qısa müddətdə türk dilində sərbəst danışmağı öyrənib. Koreyalı xanım səyahət və Türkiyədəki həyatı haqqında bunları danışıb: "2019-cu ildə dünya səyahətinə çıxdım. İndiyədək 40 ölkə və 200 şəhər gəzmişəm. Türkiyəyə də gəzinti üçün gəldim və Fəthiyyəyə getdim.





Hoteldə gözəl bir insanla tanış oldum. Fəthiyyədə 2020-ci ildə 6 ay yaşadıqdan sonra Kayseriyə gəldim və il yarımdır burada yaşayıram. Bundan əvvəl də türkcə öyrənmək üçün onlayn çalışırdım. Kayseridə isə bələdiyyəyə aid mərkəzdə türk dilini əyani olaraq öyrənməyə başladım. Əyani dərs almaq daha rahatdır, müəllimlərlə, yoldaşlarla canlı söhbətlər edirik, bu mənə çox kömək edir. Türkiyə gözəl ölkədir.

Buradakı insanları çox sevirəm. Onlar da məni sevir. Türkiyənin mənzərələri də çox gözəldir, Koreya da gözəldir, amma burada dəniz, yüksək dağlar, tarixi məkanlar çoxdur. Türkiyəni sevməyimin bir səbəbi də bunlardır". Mərkəzin türkcə dil kursu müəllimi Banu Odabaşı Hivan Ko haqqında danşıb və onu müsbət enerjili, istedadlı tələbə adlandırıb.

Məlahət



# Son mesajı üzə çıxdı

İsrailin qəddarlığına qarşı özünü yandıran ABŞ əsgəri ürək canından oldu

**ABŞ-nin paytaxtı Vaşinqtonda İsrail səfirliyinin qarşısına gələn Aaron Başnel adlı Hərbi Hava Qüvvələri əsgəri Fələstinə dəstək üçün canlı televiziya yayımında özünü yandırıb.**

"Şərq" xəbər verir ki, kameraya düşən görüntülərdə yerli vaxtla saat 13:00 radələrində uniformalı bir amerikalı əsgər İsrail səfirliyinin qarşısına gəlib. Səfirliyin qapısına doğru addımlayan əsgər adının Aaron Başnel olduğunu bildirib və "Mən artıq soyqırımın iştirakçısı olmayacağam. Mən ən ifrat etiraz hərəkatının astanasındayam. Bunnunla belə, fələstinlilər müstəmləkəçilərin əlindədir" və dəfələrlə "Fələstini azad edin" deyə qışqırıb.

Səfirliyin qarşısındakı məmurlardan biri əsgərdən "Sənə kömək edə bilərəmmi?" soruşduğu eşidilən zaman videoda onun başqasına uzanması üçün qışqırdığı əks olunub.

Vaşinqton polisinin sözçüsü verdiyi açıqlamada ABŞ-nin İsrailin Qəzzada müharibəsinə verdiyi dəstəyə etiraz etmək üçün İsrail səfirliyi qarşısında özünü yandıran hərbi qulluqçunun öldüyünü açıqlayıb. Mətbuat katibi Paris Levbel əsgər 25 yaşlı Aaron Başnelin xəstəxanada öldüyünü təsdiqləyib.

Digər tərəfdən, Başnelin dostlarına verdiyi son mesajlar ABŞ mediası tərəfindən açıqlanıb. **"Vaşinqton Post"**un



məlumatına görə, Başnel və onun 25 yaşlı dostu bir neçə gün əvvəl telefonda qurbanlıq və anarxiya mövzularından danışıblar. Başnel özünü yandırmazdan cəmi 12 dəqiqə əvvəl adı açıqlanmayan dostuna "Ümid edirəm ki, başa düşürsən, səni sevirəm" yazıb. Başqa bir mesajda Başnel deyib: "Bunun heç bir mənası yoxdur, amma mən sizin üçün darıxacaq kimi hiss edirəm" sözlərini qeyd edib. **"Vaşinqton Post"** həmçinin Başnelin dini məhəllədə böyüdüyünü və hətta bəzi xristian icmalarının üzvü olduğunu yazıb.

**"New York Post"** qəzeti ölən əsgərin sosial şəbəkələrdəki paylaşımlarını diqqətə çatdırıb. Başnel düz 6 il əvvəl yazdığı bir yazıda, "Bir çoxumuz özümüzə bu sualı verməyi sevirik: "Köləlik dövründə sağ olsaydım nə edərdim?" Ölkəm soyqırım törətsəydi, nə edərdim?" ifadələrindən istifadə etdiyi görünüb.

Turan

## Kiçik balıqlar daha yüksək səs çıxarır



**Adətən təbiətdə heyvan nə qədər böyükdürsə, səs-küy də bir o qədər yüksək olur. Suyun altında isə bu, bir qədər fərqlidir.**

BBC telekanalı xəbər verir ki, almaniyalı alimlər laboratoriyadakı balıq akvariumundan gələn səsləri eşitdikdən sonra araşdırma aparmaq qərarına gəliblər. Tədqiqat nəticəsində məlum olub ki, həmin balıqlar 140 desibellik çəkic zərbəsinə bənzər səs çıxarır. Səsin səviyyəsi güllə atışına bərabərdir. Uzunluğu 12 millimetr olan bu balıq növü ölçüsünə görə indiyədək aşkarlanan ən səs-küylü balıqdır. Alimlər onun su canlıları arasında ünsiyyət forması olduğunu düşünürlər.

Tədqiqatın nəticələri "Proceedings of the National Academy of Sciences" jurnalında dərc olunub.

## Ağız içərisində yaralar olur

Uşaqlar arasında yeni virus artmağa başlayıb



**Koksaki virusları artıq uşaqlar arasında artmağa başlayıb.**

Bu barədə Trend-in suallarını cavablandıran pediatr-reanimatoloq Qoşqar İsmayılov deyib.

O qeyd edib ki, bu virusa yoluxan zaman, əsasən, əl və ayaqda, göz ətrafında səpkilər olur.

"Səpkilər sulanan suçiçəyi səpkilərinə bənzəyir. Buna bəzən "əl-ayaq-ağız xəstəliyi" deyilir. Əsasən məktəbəqədər dövrdə daha çox rast gəlinir. Ağız içərisində yaralar olur, hərarət yüksəlir. Onun formaları var ki, hətta bəzi uçuqlara da keçə bilər",- deyə o bildirib.

Xatırladaq ki, Azərbaycanda son illər yoluxucu xəstəliklərə qarşı aparılan profilaktik tədbirlər nəticəsində qızılca xəstəliyi üzrə sabit epidemioloji vəziyyət müşahidə olunsa da, 2023-cü ilin aprel ayından başlayaraq əhali arasında bu xəstəliyin sporadik yayılma halları qeydə alınıb. Yoluxma, əsasən, uşaqlar arasında müşahidə edilib. 2022-ci ildə ölkə ərazisində 1 nəfərdə qızılcaya yoluxma halı qeydə alınsa da, 2023-cü ilin yanvar-noyabr aylarında 1493 nəfər bu xəstəliyə yoluxub.

## Arxeoloqlar iki min illik tarixi olan bıçaq tapıblar



**Danimarkadakı Odense Muzeyinin arxeoloqları üzərində runik yazı həkk olunan və əhəmiyyətli tarixi artefakt sayılan iki min illik bıçaq tapıblar.**

Azərtac "Artnet" saytına istinadla xəbər verir ki, bıçaq Odense şəhərinin şərqində qədim məzarlıqdakı qəbirlərdən birinin içərisində aşkarlanıb.

Bıçağın üzərinə qədim Nors dilində "kiçik qılınc" mənasını verən "hirila" sözü yazılıb.